# DUA VƏ ZİKRLƏR

Kitabın nəşrinə Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi tərəfindən 28.04.2023-cü il tarixli 3-32/2-673/2023 saylı məktubla icazə verilmişdir.

**Hazırladı:**
Aliosman Qədimbəyli

# Mündəricat

**1-ci hissə**

Qurani-Kərimdən dua ayələri....11

**2-ci hissə**

Seçilmiş fəzilətli dualar................35

**3-cü hissə**

Səhər-axşam dua və zikrləri......106

**4-cü hissə**

Gündəlik zikrlər..........................119

# GİRİŞ

İnsanlığı və bütün aləmləri böyük bir hikmət və məqsədlə yaradan Allahu Təalaya sonsuz həmd və sənalar olsun!

Kainata ən böyük rəhmət, ən böyük şəfaətçi və ən böyük peyğəmbər olaraq göndərilən Muhamməd Mustafa salləllahu aleyhi və sələmə, onun alinə, səhabələrinə və bütün ona tabe olanlara salat və salam olsun!

Dua – lüğətdə çağırmaq, şəriət mənasında isə səslənmək, Allahu Təalaya yalvarmaq deməkdir. Yəni Allahu Təaladan xeyir və rəhmət niyaz etmək, şəriətdə caiz olan bir ehtiyacını istəməkdir.

Dua aciz olan qulun qadir olan Allahu Təaladan ehtiyacını əməl, söz və hal ilə yalvararaq və ixlasla istəməsidir.

## Duanın ədəbləri

**1. Dəstəmazlı olmaq.**

**2. Üz qibləyə tərəf döndərilməli, əllər səmaya açılmalıdır.**

**3.Tövbə-istiğfar edilməlidir.** (Günah işləyən, haramlardan uzaq durmayan bir qulun duası qəbul edilməyə layiq deyil).

**4. Duanın qəbulu üçün fəzilətli vaxtlar seçilməlidir.** Belə ki, dua hər zaman və hər yerdə edilə bilsə də, bəzi vaxtlarda olunması duanın daha tez qəbuluna səbəb olur. Ərəfə günü və gecəsində, mübarək üç aylarda (Rəcəbi-şərif, Şabanı-şərif, Ramazanı-şərif), Cümə və bayram günü və gecələrində, gecənin son üçdə ikisində, azanla iqamə arasında, səcdədə, fərz namazlardan sonra, iftar açarkən edilən duaların daha tez qəbul olunmasına dair bəzi hədisi-şəriflər vardır. Allahu Təala

Qurani-Kərimdə: “Onlar gecələr az yatarlar. Səhər vaxtlarında bağışlanma diləyərlər” (Zariyat surəsi, ayə 17-18) buyurmuşdur. Peyğəmbər Əfəndimizdən (s.a.v): “Ey Allahın Rəsulu, hansı dua daha məqbuldur?” – deyə soruşdular, “Gecə yarısı və fərz namazlardan sonra edilən dua”, – cavabını verdi.

**5. Duadan əvvəl Allahu Təalaya çoxlu həmd və səna edilməlidir.**

**6. Peyğəmbər Əfəndimizə (s.a.v) salavat gətirilməlidir.**

**7. Dua içdən, yavaş səslə, təvazökarlıqla və yalvararaq edilməlidir.** Bir ayəti-kərimədə belə buyurulur: “Rəbbinizə yalvara-yalvara və için-için dua edin. Çünkü O, həddi aşanları sevməz” (Əraf surəsi, ayə 55).

**8. Duada israrlı olmalı və arzuolunan şey davamlı istənilməlidir.** Allahu Təaladan ümidi üzməmək və qəbul olunması üçün tələsməmək

lazımdır. Peyğəmbər Əfəndimiz (s.a.v) belə buyurur: "Sizdən biri: "Dua etdim, qəbul olunmadı", - deyərək tələsmədiyi müddətcə duası qəbul olunar". ("Sünəni-Tirmizi", Dəavat, 12)

**9. Ümid və qorxu içində dua edilməlidir.** Qurani-Kərimdə belə buyurulur: "Onlar xeyirli işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə ibadət edərdilər. Onlar Bizə müti idilər" (Ənbiya surəsi, ayə 90).

**10. Duada yalnız özü üçün deyil, bütün müsəlmanlar üçün dua edilməlidir.**

**11. Duanın sonunda Amin deyilməli və əllər üzə sürtülməlidir.**

**12. Duanın tez qəbul edilməsinin əsl sirri və açarı isə halal loxma yeməkdir.** Hədisi-şərifdə buyuruldu: "Haramdan çəkinin! Mədəsinə haram loxma girənin qırx gün

duası qəbul olunmaz” [Təbərani]. Sad bin Əbi Vaqqas (r.a) dedi: “Ya Rəsulallah, mənə dua et ki, Allahu Təala mənim hər duamı qəbul etsin”. Rəsulullah Əfəndimiz (s.a.v) buyurdu: “Duanızın qəbul olması üçün halal loxma yeyin! Çox kimsə vardır ki, yedikləri və geydikləri haramdır. Sonra əllərini qaldırıb dua edərlər. Belə dua necə qəbul ola bilər ki!?” [“Şir’a”]

## Duası qəbul olunan insanlar

Dörd sinif insan vardır ki, duaları geri çevrilməz:

1) Qayıdana qədər hacının duası;

2) Evinə qayıdana qədər qazinin duası;

3) Sağalana qədər xəstənin duası;

4) Qardaşın qardaşa qiyabında etdiyi dua. (Suyuti, “əl-Camiu’s-sağir”, hədis №: 915).

## 1-Cİ HİSSƏ

# QURANİ-KƏRİMDƏN DUA AYƏLƏRİ

## (Bütün Peyğəmbərlərin (aleyhimüssalam) duaları)

• Bismilləhirrahmənirrahim. Həmd və səna yalnız Allaha məxsusdur. Salat və salam son peyğəmbər Muhamməd Mustafayadır (s.a.v).

• "Bismilləhirrahmənirrahim. Həmd olsun aləmlərin Rəbbi olan ALLAHA. O Rəhman və Rəhimə. Cəza və mükafat gününün sahibinə. (Ey Rəbbimiz!) Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik. Bizi doğru yola yönəlt. Özünə nemət verdiyin kimsələrin yoluna, qəzəbə uğrayanların və azanların yoluna deyil" (Fatihə surəsi, ayə 1-7).

• "Ey Rəbbimiz! Bizdən qəbul et. Eşidən Sənsən, bilən Sənsən". /Hz. İbrahim və Hz. İsmail aleyhimüssəlamın Kəbəyi-Müəzzəməni tikərkən etdiyi dua/ (Bəqərə surəsi, ayə 127).

• “Ey Rəbbimiz! Bizə dünyada da yaxşılıq ver, axirətdə də yaxşılıq ver və bizi atəşin əzabından qoru” (Bəqərə surəsi, ayə 201).

• “Ey Rəbbimiz, bizə bol səbr və dizimizə qüvvət ver! Kafirlər topluluğuna qarşı bizə yardım et” /Talutun ordusunun duası/ (Bəqərə surəsi, ayə 250).

• “Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!” (Bəqərə surəsi, ayə 285).

• “Allah hər kəsi yalnız gücü çatdığı qədər mükəlləf edər. Hər kəsin etdiyi yaxşılıq yalnız onun öz lehinə, etdiyi pislik də yalnız öz əleyhinədir. “Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi

daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!" (Bəqərə surəsi, ayə 286).

- "Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra qəlbimizi azdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən bəxş edənsən" (Ali-İmran surəsi, ayə 8).

- "Ey Rəbbimiz! Həqiqətən, biz inandıq və iman gətirdik, bizim günahlarımızı bağışla və bizi atəş əzabından qoru!" (Ali-İmran surəsi, ayə 16).

- "Ey mülkün sahibi Allahım! Sən mülkü istədiyin kəsə verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni əziz edib ucaldır və istədiyini də alçaldırsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən" (Ali-İmran surəsi, ayə 26).

• “Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz, Sən duaları haqqı ilə eşidənsən” /Hz. Zəkəriyyə aleyhissəlamın duası/ (Ali-İmran surəsi, ayə 38).

• “Ey Rəbbimiz! Biz Sənin nazil etdiyinə iman gətirdik və göndərdiyin elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!” /Hz.İsa aleyhissəlamın həvarilərinin duası/ (Ali-İmran surəsi, ayə 53).

• “Ey Rəbbimiz! Günahlarımıza və işlərimizdə həddi aşdığımıza görə bizi bağışla! Qədəmlərimizi möhkəmləndir və kafirlərə qələbə çalmaqda bizə kömək et” (Ali-İmran surəsi, ayə 147).

• “Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Cəhənnəm əzabından qoru!” (Ali-İmran surəsi, ayə 191).

• “Ey Rəbbimiz! Sən atəşə saldığın kəsi rüsvay edərsən. Zalımların köməkçiləri olmaz” (Ali-İmran surəsi, ayə 192).

• “Ey Rəbbimiz! Həqiqətən, biz: “Rəbbinizə iman gətirin!” – deyə imana çağıran bir kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al!” (Ali-İmran surəsi, ayə 193).

• “Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə bizə vəd etdiklərini ver və qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən!” (Ali-İmran surəsi, ayə 194).

• “Ey Rəbbimiz! Biz iman gətirdik, bizi də şahidlərlə bir yerə yaz!” (Maidə surəsi, ayə 83).

• “Allahım! Ey bizim Rəbbimiz! Bizə göydən bir süfrə endir ki, bizim

həm birincimiz, həm də axırıncımız üçün bir bayram və Səndən bir möcüzə olsun. Bizə ruzi ver, Sən ruzi verənlərin ən yaxşısısan!" /Məryəm oğlu Hz.İsa aleyhissəlamın duası/ (Maidə surəsi, ayə 114).

• "Həqiqətən, Rəbbim məni doğru yola, həqiqi dinə, hənif İbrahimin dininə yönəltdi. O heç vaxt müşriklərdən olmamışdı" (Ənam surəsi, ayə 161).

• De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!" (Ənam surəsi, ayə 162).

• "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq" /Hz. Adəm və Hz. Həvvanın duasi/ (Əraf surəsi, ayə 23).

• "Ey Rəbbimiz! Bizi zalımlara tay tutma!" (Əraf surəsi, ayə 47).

• “Allah bizi sizin dininizdən xilas etdikdən sonra biz yenə də ona qayıtsaq, Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz Allah istəməyincə bizim ona dönməyimiz olacaq bir şey deyildir. Rəbbimiz elmi ilə hər şeyi əhatə etmişdir. Biz Allaha təvəkkül etmişik. Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm ver. Axı Sən hökm verənlərin ən yaxşısısan” /Hz.Şuayb aleyhissəlamın duası/ (Əraf surəsi, ayə 89).

• “Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq. Sən sadəcə Rəbbimizin möcüzələri bizə gəldikdə onlara iman gətirmədiyimizə görə bizdən intiqam alırsan. Ey Rəbbimiz! Bizə çoxlu səbir ver və bizi müsəlman olaraq öldür” /Fironun sehrbazlarının duası/ (Əraf surəsi, ayə 125-126).

• “Ey Rəbbim! Əgər istəsəydin, bundan əvvəl onları da, məni də

məhv edərdin. Özümüzdən olan səfehlərin etdiklərinə görə bizi həlakmı edəcəksən? Bu yalnız Sənin sınağındır. Sən onunla istədiyini azğınlığa aparır, istədiyini də doğru yola yönəldirsən. Sən bizim himayəçimizsən! Bizi bağışla və bizə rəhm et! Axı Sən bağışlayanların ən yaxşısısan" /Hz. Musa aleyhissəlamın duası/ (Əraf surəsi, ayə 155).

• "Bizim üçün bu dünyada da yaxşılıq yaz, axirətdə də. Həqiqətən, biz Sənə üz tutduq!" /Hz. Musa aleyhissəlamın duası/ (Əraf surəsi, ayə 156).

• "Əgər bizə sağlam bir övlad versən, əlbəttə, şükür edənlərdən olarıq" (Əraf surəsi, ayə 189).

• "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!" (Tövbə surəsi, ayə 51).

• “Biz ancaq Allaha təvəkkül edirik. Ey Rəbbimiz! Bizi zalım qövmün əlində sınağa çəkmə! Və bizi Öz mərhəmətinlə kafir qövmün əlindən qurtar” /Musa aleyhissəlamın qövmünün duası/ (Yunus surəsi, ayə 85-86).

• “Gəmiyə minin! Onun üzüb getməsi də, dayanması da Allahın adı ilədir. Şübhəsiz ki, Rəbbim bağışlayandır, rəhmlidir” /Hz.Nuh aleyhissəlamın duası/ (Hud surəsi, ayə 41).

• “Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamasan, mənə rəhm etməsən, ziyana uğrayanlardan olaram” /Hz.Nuh aleyhissəlamın duası/ (Hud surəsi, ayə 47).

• “Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim himayədarımsan. Mənim

canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur" /Hz.Yusif aleyhissəlamın duası/ (Yusif surəsi, ayə 101).

• "O mənim Rəbbimdir. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Mən yalnız Ona təvəkkül edir və Ona üz tutub tövbə edirəm" (Rəd surəsi, ayə 30).

• "Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq yurdu et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaqlaşdır" /Hz.İbrahim aleyhissəlamın duası/ (İbrahim surəsi, ayə 35).

• "Ey Rəbbim! Həqiqətən, onlar çox adamı azdırıblar. Kim mənə tabe olsa, o məndəndir. Kim də mənə asi olsa, bilsin ki, Sən bağışlayansan, rəhmlisən" /Hz.İbrahim aleyhissəlamın duası/ (İbrahim surəsi, ayə 36).

• "Ey Rəbbimiz! Mən nəslimdən bəzisini Sənin mühafizə olunan evinin yaxınlığında, heç bir bitki

olmayan bir vadidə sakin etdim. Ey Rəbbimiz! Onlar namaz qılsınlar deyə belə etdim. İnsanların bir qisminin qəlbini onlara meylləndir və onlara növbənöv məhsullardan ruzi ver ki, bəlkə, şükür etsinlər" /Hz.İbrahim aleyhissəlamın duası/ (İbrahim surəsi, ayə 37).

• "Ey Rəbbimiz! Sən bizim nəyi gizli saxladığımızı və nəyi aşkara çıxartdığımızı bilirsən. Nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz" /Hz.İbrahim aleyhissəlamın duası/ (İbrahim surəsi, ayə 38).

• "Qoca vaxtımda mənə İsmaili və İshaqı bəxş edən Allaha həmd olsun! Həqiqətən, Rəbbim duaları eşidəndir" /Hz.İbrahim aleyhissəlamın duası/ (İbrahim surəsi, ayə 39).

• "Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılanlardan et! Ey Rəbbimiz! Duamı qəbul elə!"

/Hz.İbrahim aleyhissəlamın duası/ (İbrahim surəsi, ayə 40).

• "Ey Rəbbimiz! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!" /Hz.İbrahim aleyhissəlamın duası/ (İbrahim surəsi, ayə 41).

• "Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!", - de" (İsra surəsi, ayə 24).

• "Ey Rəbbim! Məni daxil olacağım yerə yaxşılıqla daxil et, məni çıxacağım yerdən də yaxşılıqla çıxart. Öz tərəfindən mənə yardım edən bir dəlil ver" (İsra surəsi, ayə 80).

• "Özünə heç bir övlad götürməyən, mülkündə heç bir şəriki olmayan, aciz qalmamaqdan ötrü Özünə kömək edəcək heç bir dosta möhtac olmayan Allaha həmd olsun!" Onu tərifləyərək uca tut" (İsra surəsi, ayə 111).

• "Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!" – demişdilər" /Əshabı-Kəhf/ mağara əhlinin duası/ (Kəhf surəsi, ayə 10).

• "Ola bilsin ki, Rəbbim məni haqqa bundan daha yaxın olan bir yola yönəltsin", – de" (Kəhf surəsi, ayə 24).

• "Unutduğum bir şeydən ötrü məni qınama və öz işimdə məni çətinliyə salma!" /Musa aleyhissəlamın duası/ (Kəhf surəsi, ayə 73).

• "Mən özümdən sonra gələn qohumlarımın dinə etinasız yanaşacaqlarından qorxuram. Zövcəm də sonsuzdur. Mənə Öz tərəfindən elə bir övlad bəxş et ki, o həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Elə et ki, o Sənin razılığını qazanmış olsun!" /Hz.Zəkəriyyə aleyhussəlamın duası/ (Məryəm surəsi, ayə 5-6).

• "Allahım! Köksümü açıb genişlət! İşimi yüngülləşdir! Dilimdəki

düyünü aç ki, sözümü anlasınlar!" /Hz Musa aleyhissəlamın duası/ (Taha surəsi, ayə 25-35).

• "Ey Rəbbim! Elmimi artır!" /Hz.Muhamməd aleyhissəlamın duası/ (Taha surəsi, ayə 114).

• "Mən, həqiqətən, bəlaya düçar olmuşam. Sən rəhmlilərin ən rəhmlisisən!" /Hz.Əyyub aleyhissəlamın duası/ (Ənbiya surəsi, ayə 83).

• "Səndən başqa ibadətə layiq olan heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!" /Zün-Nunun duası/ ( Ənbiya surəsi, ayə 87).

• "Ey Rəbbim! Məni tənha buraxma. Sən varislərin ən yaxşısısan!" /Hz.Zəkəriyyə aleyhissəlamın duası/ (Ənbiya surəsi, ayə 89).

• "Ey Rəbbim! Mənimlə kafirlər arasında ədalətlə hökm ver! Sizin

aid etdiyiniz sifətlərə qarşı ancaq mərhəmətli olan Rəbbimizdən kömək diləmək lazımdır" /Peyğəmbər Əfəndimizin (s.a.v) duası/ (Ənbiya surəsi, ayə 112).

• "Ey Rəbbim! Onların məni yalançı saymasına qarşı mənə kömək et!" /Hz.Nuh aleyhissəlamın duası/ (Muminun surəsi, ayə 26).

• "Bizi zalımlardan xilas edən Allaha həmd olsun!" (Muminun surəsi, ayə 28).

• "Ey Rəbbim! Məni mübarək bir yerə çıxart. Sən yer verənlərin ən yaxşısısan!" /Hz.Nuh aleyhissəlamın duası/ (Muminun surəsi, ayə 29).

• "Ey Rəbbim! Əgər onlara vəd olunanı mənə göstərəcəksənsə, məni zalımların içində qoyma, ey Rəbbim!" (Muminun surəsi, ayə 93-94).

• “Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram! Onların mənə yaxınlaşmalarından Sənə sığınıram, ey Rəbbim!” (Muminun surəsi, ayə 97-98).

• “Ey Rəbbimiz! Biz iman gətirdik. Bizi bağışla, bizə rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!” (Muminun surəsi, ayə 109).

• “Ey Rəbbim, bağışla və bizə rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!” (Muminun surəsi, ayə 118).

• “Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən uzaq elə. Doğrusu, onun əzabı həmişəlikdir. Həqiqətən, o nə pis məskən, necə də pis iqamətgahdır!” (Furqan surəsi, ayə 65-66).

• “Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!” (Furqan surəsi, ayə 74).

• “Aləmlərin Rəbbindən başqa, onların hamısı mənim düşmənimdir. O Rəbb ki, məni yaratmış və məni doğru yola yönəltmişdir; O Rəbb ki, məni yedirdir və içirdir; O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir, O Rəbb ki, məni öldürəcək, sonra dirildəcəkdir; O Rəbb ki, haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram” /Hz.İbrahim aleyhissəlamın duası/ (Şuəra surəsi, ayə 77-82).

• “Ey Rəbbim! Mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur” /Hz.İbrahim aleyhissəlamın duası/ (Şuəra surəsi, ayə 83).

• “Sonra gələnlər arasında həmişə yad edilim deyə mənə yaxşı ad qismət elə!” /Hz.İbrahim aleyhissəlamın duası/ (Şuəra surəsi, ayə 84).

• “Məni Nəim bağının varislərindən et!” /Hz.İbrahim aleyhissəlamın duası/ (Şuəra surəsi, ayə 85).

• "Atamı bağışla! Çünki o, azanlardandır. Onların dirildiləcəyi gün məni rüsvay etmə! O gün ki, nə var-dövlət, nə də oğul-uşaq bir fayda verməyəcək. Ancaq sağlam bir qəlblə Allahın hüzuruna gələnlərdən başqa!" /Hz.İbrahim aleyhissəlamın duası/ (Şuəra surəsi, ayə 86-89).

• "Mənimlə onlar arasında qəti hökm ver, məni və mənimlə birlikdə olan möminləri əzabdan qurtar!" /Hz.Nuh aleyhissəlamın duası/ (Şuəra surəsi, ayə 118).

• "Ey Rəbbim! Məni və ailəmi onların tutduqları işdən xilas et!" /Hz.Lut aleyhissəlamın duası/ (Şuəra surəsi 169).

• "Bizi Öz mömin qullarının çoxundan üstün tutan Allaha həmd olsun!" /Hz. Davud və Hz.Süleyman aleyhimussəlamın duası/ (Nəml surəsi, ayə 15).

• "Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!" /Hz. Süleyman aleyhissəlamın duası/ (Nəml surəsi, ayə 19).

• "Ey Rəbbim! Mən özümə zülm etdim. Məni bağışla!" … Həqiqətən, O, bağışlayandır, rəhmlidir" /Hz. Musa aleyhissəlamın duası/ (Qəsəs surəsi, ayə 16).

• "Ey Rəbbim! Məni zalımların əlindən qurtar! Ola bilsin ki, Rəbbim mənə doğru yolu göstərsin!" /Hz. Musa aleyhissəlamın duası/ (Qəsəs surəsi, ayə 21-22).

• "Ey Rəbbim! Sənin mənə nazil edəcəyin xeyrə ehtiyacım var!" /Hz. Musa aleyhissəlamın duası/ (Qəsəs surəsi, ayə 24).

• "Ey Rəbbim! Fitnə-fəsad törədən qövmə qarşı mənə kömək et!" /Hz.Lut aleyhissəlamın duası/ (Ənkəbut surəsi, ayə 30).

• "Ey Rəbbim! Mənə əməli-saleh-lərdən olan övlad bəxş et!" /Hz. İbrahim aleyhissəlamın duası/ (Saffat surəsi, ayə 100).

• "Ey Rəbbim! Məni bağışla və mənə elə bir səltənət ver ki, məndən sonra heç kimə nəsib olmasın. Həqiqətən, Sən bəxş edənsən" /Hz. Suleyman aleyhissəlamın duası/ (Sad surəsi, ayə 35).

• "Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edir-lər!" (Zumər surəsi, ayə 38).

• "Mən öz işimi Allaha həvalə edirəm. Şübhəsiz, Allah qullarını haqqı ilə görəndir" /Hz. Musa aleyhissəlamın duası/ (Ğafir surəsi, ayə 44).

• “Ey Rəbbim! Mənə, mənim özümə və valideynlərimə bəxş etdiyin nemətə şükür etmək və Sənin razı qalacağın yaxşı işlər görmək üçün ilham ver, nəslimi də mənim üçün əməlisaleh et. Mən Sənə tövbə etdim. Həqiqətən, mən müsəlmanlardanam!” (Əhqaf surəsi, ayə 15).

• “Məni üstələdilər! Mənə kömək et!” – dedi” /Hz.Nuh aleyhissəlamın duası/ (Qəmər surəsi, ayə 10).

•“Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən şəfqətlisən, rəhmlisən!” (Həşr surəsi, ayə 10).

• “Ey Rəbbimiz! Bizi kafirlər üçün sınaq vasitəsi etmə. Ey Rəbbimiz, bizi bağışla. Həqiqətən, Sən qüdrətlisən, müdriksən!” (Mumtəhinə surəsi, ayə 5).

• “Ey Rəbbimiz! Nurumuzu bizim üçün tamamla və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!” (Təhrim surəsi, ayə 8).

• “Ey Rəbbim! Mənə Öz yanında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən xilas et. Məni zalımlardan qurtar!” /Fironun xanımının duası/ (Təhrim surəsi, ayə 11).

• “Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və bütün mömin kişi və qadınları bağışla! Zülmkarların isə ancaq həlakını artır” /Hz.Nuh aleyhissəlamın duası/ (Nuh surəsi, ayə 28).

• “Sığınıram sübhün Rəbbinə! Məxluqatının şərindən, çökən zülmətin şərindən, düyünlərə üfürən cadugər qadınların şərindən və həsəd aparan zaman paxılın şərindən!” (Fələq surəsi, ayə 1-5).

• “Sığınıram insanların Rəbbinə, insanların hökmdarına, insanların məbuduna! Vəsvəsə verənin, Allahın adı çəkiləndə isə hövlündən geri çəkilən şeytanın şərindən. O şeytan ki, insanların qəlblərinə vəsvəsə salır, o, cinlərdən də olur, insanlardan da!” (Nas surəsi, ayə 1-6).

## 2-Cİ HİSSƏ

# SEÇİLMİŞ FƏZİLƏTLİ DUALAR

## Peyğəmbər Əfəndimizin (s.a.v) gündəlik oxuduğu dualar

- Allahım! Bizə dünyada da xeyir ver, axirətdə də xeyir ver. Bizi atəşin əzabından qoru.

- Allahım! Atəşin fitnəsindən, qəbrin fitnəsindən və qəbir əzabından, zənginliyin fitnəsindən və kasıbçılığın fitnəsindən Sənə sığınırıq.

- Allahım! Məsihi-Dəccalın fitnəsinin şərindən Sənə sığınırıq.

- Allahım! Qəlbimizı qar və dolu suyu ilə yu. Ağ paltar kirdən təmizləndiyi kimi, qəlbimizi günahlardan təmizlə. Şərqlə qərbi bir-birindən uzaqlaşdırdığın kimi, bizləri də xətalardan uzaqlaşdır.

- Allahım! Tənbəllikdən, günahdan və borcdan Sənə sığınırıq.

- Allahım! Acizlikdən, tənbəllikdən, qorxaqlıqdan, qocalığın ixtiyarlığından və xəsislikdən Sənə sığınırıq.

➢Allahım! Qəbir əzabından, həyatın və ölümün fitnəsindən Sənə sığınırıq.

➢Allahım! Çəkilməz bəladan, sıxıntıya düşməkdən, pis qəzadan və düşmənlərin sevinməsindən Sənə sığınırıq.

➢Allahım! Hər işimizin qoruyucusu olan dinimizlə bizləri salamata çatdır. İçində yaşadığımız dünyamızı islah eylə. Sonunda dönüb qayıdacağımız axirəti əmin-amanlq yurdu et. Həyatda bizim üçün hər cür xeyri və yaxşılığı artır. Ölümün bizlər üçün hər cür çirkinliklərdən, pisliklərdən, çətinliklərdən qurtulub, rahata qovuşma vəsiləsi qıl.

➢Allahım! Səndən hidayət, təqva, iffət və sərvət istəyirik.

➢Allahım! Acizlikdən, tənbəllikdən, qorxaqlıqdan, xəsislikdən, qocalığın ixtiyar çağından və qəbir əzabından Sənə sığınırıq.

➢Allahım! Nəfsimin təqvasını ver və onu təmizlə. Onu ən yaxşı təmizləyəcək olan Sənsən. Onun mövlası Sənsən.

➢Allahım! Fayda verməyən elmdən, qorxmayan qəlbdən, doymayan nəfsdən və qəbul olmayan duadan Sənə sığınırıq.

➢Allahım! Bizə hidayət nəsib et və bizə doğru yolu göstər. Allahım! Səndən hidayət və doğruluq istəyirik.

➢Allahım! Nemətinin kəsilməsindən, afiyətinin tərs dönməsindən və cəzanın anidən gəlməsindən Sənə sığınırıq.

➢Allahım! Bizə çox mal-dövlət və övlad ver. Bizə verdiklərini bərəkətli et. Sənə itaət yolunda bizə uzun ömür ver. Əməllərimizi gözəlləşdir. Bizi bağışla.

Azim və Həlim olan ALLAHdan başqa haqq ilah yoxdur. Müəzzəm Ərşin Rəbbi Allahdan başqa haqq ilah yoxdur. Kərim olan Ərşin Rəbbi, göylərin Rəbbi və yerin Rəbbi Allahdan başqa ilah yoxdur.

➢Allahım! Ümidimiz rəhmətindir. Bizi bir an belə nəfsimizlə baş-başa buraxma. Hər işimizi islah et. Səndən başqa haqq ilah yoxdur.

➢Allahım! Səndən başqa haqq ilah yoxdur. Səni tənzih edirik. Həqiqətən, mən zalımlardan oldum.

➢Allahım! Biz Sənin qullarınıq. Kişi və qadın qullarının övladlarıyıq. Alın yazımız Sənin hökmündədir. Haqqımızda Sənin hökmün keçərlidir. Sən bizim haqqımızda ədalətlə hökm edənsən. Özünü adlandırdığın, Kitabında endirdiyin, qullarından birinə öyrətdiyin və ya qatındakı qeyb elmində Özünə haqq etdiyin Sənə aid hər bir isminlə

Səndən istəyirik. Qurani-Kərimi qəlbimizin baharı, köksümüzün nuru, üzüntümüzün və kədərimizin dərmanı et.

➢Ey qəlblərin idarəçisi olan Allahım! Qəlblərimizi Sənə itaətə yönləndir.

➢Ey qəlbləri döndərən Allahım! Qəlblərimizi dinində sabit saxla.

➢Allahım! Bütün işlərimizdə sonumuzu xeyir eylə. Bizi dünyada rəzil-rüsvay olmaqdan və qəbir əzabından qoru.

➢Allahım! Bizə yardım et, bizə qarşı olana yardım etmə. Bizə zəfər ver, bizə qarşı olana zəfər vermə. Bizə qurulan hiylələri boşa çıxart, əleyhimizdəki hiylə və fitnələrə fürsət vermə. Bizi Sənə çox şükür edən, Səni çox zikr edən, Səndən çox qorxan, Sənə çox itaət edən, sadəcə Sənin üçün əyilən, Sənə çox yalvarıb-

yaxararaq yönələn qullarından et. Uca Rəbbim! Tövbəmizi qəbul eylə, dəlilimizi sabit qıl, qəlbimizə hidayət eylə, dilimizə doğrunu söylət, qəlbimizi pis duyğu və düşüncələrdən təmizlə.

➤Allahım! Qulağımızın şərindən, gözlərimizin şərindən, dilimizin şərindən, qəlbimizin şərindən və belimizin şərindən (zinadan) Sənə sığınırıq.

➤Allahım! Sən bağışlayansan, kərəm sahibisən və əfv etməyi sevərsən. Bizi də bağışla.

➤Allahım! Yaxşılıqlar etməyi, pislikləri tərk etməyi, yoxsulları sevməyi, bizləri bağışlamanı və bizə mərhəmət etməni Səndən istəyirik. Əgər bir topluma bir fitnə göndərəcəksənsə, bizi o fitnəyə düşürmədən vəfat etdir. Bizə Səni sevməyi, Səni sevənləri sevməyi və

Sənin sevginə yaxınlaşdıran hər bir əməli sevməyi nəsib eylə.

➢Allahım! Səndən bildiyimiz və bilmədiyimiz, indiki və gələcəkdəki bütün xeyirləri istəyirik. Səndən bildiyimiz və bilmədiyimiz, indiki və gələcəkdəki bütün şərlərdən Sənə sığınırıq.

➢Allahım! Qulun və rəsulun Muhammməd (s.a.v) Səndən istədiyi xeyirləri biz də istəyirik. Qulun və rəsulun Muhammməd (s.a.v)in Sənə sığındığı şərlərdən biz də Sənə sığınırıq.

➢Allahım! Səndən Cənnəti və Cənnətə yaxınılaşdıracaq söz və ya əməli istəyirik. Cəhənnəmdən və Cəhənnəmə yaxınlaşdıracaq söz və ya əməldən də Sənə sığınırıq. Bizim haqqımızda verdiyin hökmün xeyir və yaxşılıq olmasını niyaz edirik.

➢Allahım! Ayaqda ikən bizim müsəlmanlığımızı mühafizə eylə.

Oturarkən bizim müsəlmanlığımızı mühafizə eylə. Yatarkən bizim müsəlmanlığımızı mühafizə eylə.

➤Allahım! Bizi düşmənin və həsədçinin dilinə düşürmə.

➤Allahım! Xəzinələri Sənin əlində olan bütün xeyirlərdən bizə də nəsib etməyini istəyirik və ancaq Sənin əngəlləyəcəyin bütün şərlərdən də Sənə sığınırıq.

➤Allahım! Sənə qarşı işlənəcək günahlarla aramızda pərdə olacaq qorxundan, bizi Cənnətə götürəcək qulluğundan və dünya müsibətlərinə qarşı dözümlülüyümüzü asanlaşdıracaq güclü bir imandan bizə də nəsib eylə.

➤Allahım! Bizi yaşatdıqca qulaqlarımız, gözlərimiz və gücümüzdən bizi faydalandır. Eyni nemətləri nəslimizə də nəsib eylə. Bizə zülm edənlərdən intiqamımızı al.

Düşmənlərə qarşı bizə zəfər nəsib et. Bizi dinimizdən ötrü müsibətlərə məruz qoyma. Dünyanı ən böyük qayəmiz etmə. Dünyalıq bilgiləri də bilgimizin sərhəddi etmə. Bizə acımayanları da bizdən uzaq tut.

➤Allahım! Qorxaqlıqdan Sənə sığınırıq, çox yaşlanıb başqalarına möhtac olmaqdan Sənə sığınırıq. Dünyanın fitnəsindən və qəbir əzabından Sənə sığınırıq.

Allahım! Xətamızı, cəhalətimizi, işimizdəki ifratı və bizdən daha yaxşı bildiyin günahlarımızı bağışla.

➤Allahım! Zarafat olaraq işlədiyimiz və ciddi olaraq işlədiyimiz günahlarımızı, yanılaraq və bilərək etdiyimiz və bizlərdə olan bütün günahlarımızı bağışla.

➤Allahım! Biz nəfsimizə çox zülm etdik. Günahları ancaq Sən bağışlayırsan. Bizi mərhəmətinlə bağışla,

bizə mərhəmət et. Şübhəsiz, Sən çox əfvedici və çox mərhəmət edənsən.

➢Allahım! Sənə təslim olduq, Sənə inandıq, Sənə güvəndik, Sənə yönəldik və Sənin verdiyin güc və qüvvətlə mücadilə etdik.

➢Allahım! Bizi azğınlığa düşürməndən yenə Sənin qüdrətinə sığınırıq. Səndən başqa haqq ilah yoxdur. İnsanlar və cinlər öldüyü halda Sən ölməyən dirisən.

➢Allahım! Səndən bizi rəhmətinə qovuşduracaq və bağışlamana vəsilə olacaq hər şeyi, hər cür günahlardan uzaq olmağı və bütün yaxşılıqları əldə etməyi, sonunda Cənnətə qovuşmağı, Cəhənnəm əzabından qurtulmağı niyaz edirik.

➢Allahım! Bildiyimizin şərindən də, bilmədiklərimizin şərindən də Sənə sığınırıq.

➢Allahım! Bizə ixtiyarlığımızda və ömrümüzün sonunda bol-bol ruzi-bərəkət ver.

➢Allahım! Gunahlarımızı bağışla, bizə geniş ev ver, ruzimizi bərəkətləndir.

➢Allahım! Sənin lütfündən və rəhmətindən istəyirik. Çünki lütf və rəhmətin sahibi ancaq Sənsən.

➢Allahım! Yüksəklikdən yuvarlanib düşməkdən, dağıntı altında qalmaqdan, boğulmaqdan və yanğından Sənə sığınırıq. Ölüm anında şeytanın hiylə və aldatmasından Sənə sığınırıq. Yolunda savaşan zaman arxamızı döndərib qaçarkən ölməkdən Sənə sığınırıq. Zəhərli bir heyvan tərəfindən sancılıb ölməkdən Sənə sığınırıq.

➢Allahım! Acizlikdən, tənbəllikdən, qorxaqlıqdan, yaşlılıqdan, fasiqlikdən, ayrılıqdan, münafiqlik-

dən, göstəriş və riyakarlıqdan Sənə sığınırıq. Karlıqdan, lallıqdan, dəlilikdən, cüzamdan, dəri xəstəliklərindən və (bütün) pis xəstəliklərdən Sənə sığınırıq.

➢Allahım! kasıbçılıqdan, azlıqdan və zillətdən Sənə sığınırıq. Zülm etməkdən və ya zülmə məruz qalmaqdan Sənə sığınırıq.

➢Allahım! Qorxmayan qəlbdən, qəbul edilməyən duadan, doymayan nəfsdən, faydasız elmdən Sənə sığınırıq. Bu dörd şeydən Sənə sığınırıq.

➢Allahım! Pis gündən, pis gecədən, pis saatdan, pis dostdan və pis qonşudan Sənə sığınırıq.

➢Allahım! Səndən Cənnəti istəyir və Cəhənnəm atəşindən də Sənə sığınırıq. (3 dəfə təkrar edilir)

➢Allahım! Bizi dində elm və anlayış sahibi et.

➤Allahım! Bilərək Sənə şirk qoşmaqdan Sənə sığınırıq, bilməyərək şirk edəriksə də, bağışlamanı niyaz edirik.

➤Allahım! Səndən faydalı elm, təmiz ruzi və qəbul edilən əməl istəyirik.

➤Allahım! Səndən faydalı elm istəyirik və faydasız elmdən də Sənə sığınırıq.

➤Allahım! Mən Sənin zatında, Sifətlərində və feillərində tək olub bənzəri olmayan, heç bir şeyə ehtiyacı olmayıb, bütün məxluqatın möhtac olduğu, doğmayan, doğulmayan və heç bir şeyə bənzəməyən Allah olduğunu etiraf edərək məni bağışlamağını diləyirəm. Çünki Sən çox bağışlayan və çox mərhəmət edənsən.

➤Allahım! Sən tək Allahsan, doğmayan, doğulmayan və heç bir şeyə

tayı-bərabəri olmayan Samədsən. Sən Əvvəlsən, Səndən öncə heç bir şey yoxdur. Sən Axırsan, Səndən sonra kimsə olmayacaq. Sən Zahirsən, Səndən üstün kimsə yoxdur. Önə keçirən də Sənsən, gecikdirən də Sənsən. Sənin gücün hər şeyə yetər.

➤Allahım! Mən şükrün (tərifin) Sənə məxsus olub, Səndən başqa haqq ilah olmadığını, Sənin tək olub, heç bir ortağının olmadığını, göylərin və yerin yoxdan yaradıcısı olduğunu, əzəmət və sonsuz lütf sahibi olduğunu etiraf edərək Səndən istəyirəm. Ey Hayy və Qayyum olan Allah! Mən Səndən Cənnəti istəyirəm və Cəhənnəmdən də Sənə sığınıram.

➤Ey Rəbbim! Bizləri bağışla və bizim tövbəmizi qəbul et. Şübhəsiz ki, Sən tövbələri çox qəbul edənsən və çox bağışlayıcısan.

➢Allahım! Sən qeybi bilirsən və yaratmağa gücün yetər, o halda yaşamaq bizim üçün xeyirli olduğu müddətcə bizi yaşat, ölüm bizim üçün xeyirli olduqda da bizi öldür.

➢Allahım! Kimsənin bizi görmədiyi bir yerdə də Səndən qorxmağı diləyirik. Zənginlikdə və kasıblıqda bizi doğru yoldan ayırmamağını diləyirəm. Səndən tükənməyan nemət və davamlı bir xoşbəxtlik istəyirəm. Səndən bəladan sonra riza göstərməyini və ölümdən sonra asan bir həyat diləyirəm. Camalına baxmanın ləzzətini, zərərverici bir sıxıntıya və azdırıcı bir fitnəyə düşmədən Sənə qovuşmağın həsrətini istəyirəm.

➢Allahım! Bizi iman zinəti ilə bəzə və bizi hidayətə çatmış doğru yolun rəhbərləri et.

➢Allahım! Bizi günah və xətalarımızdan təmizlə.

➢Allahım! Ağ paltar kirdən təmizləndiyi kimi, o kirlərdən bizi təmizlə. Allahım! Bizi qar, dolu, su və soyuq su ilə yu.

➢Cəbrail, Mikail və İsrafil aleyhimussəlamın Rəbbi! Allahım! Cəhənnəmin istisindən və qəbir əzabından Sənə sığınırıq.

➢Allahım! Mənim yetkinlik yaşımı ilham et və məni nəfsimin şərindən qoru.

➢Göylərin və yerin Rəbbi böyük Ərşin Rəbbi Allahım! Ey bizim Rəbbimiz və hər şeyin Rəbbi! Ey dənəni və toxumu çatladıb yaran! Ey Tövrat, İncil və Qurani-Kərimi endirən! Hər şeyin şərindən Sənə sığınırıq. Qədərimiz Sənin əlindədir.

➢Allahım! Sən Əvvəlsən, Səndən öncə heç nə yoxdur. Sən Axırsan, Səndən sonra kimsə də olmayacaq. Sən Zahirsən, Səndən üstün kimsə

yoxdur. Borcumuzu ödəməyi nəsib eylə və bizi kasıbçılıqdan qurtar.

➢Allahım! Qəlblərimizi birləşdir və bizim aramızı düzəlt. Bizə qurtuluş yollarını göstər. Bizi qaranlıqdan qurtar, aydınlığa çıxart. Bizi gizli və açıq pisliklərdən uzaqlaşdır. Qulaqlarımıza, gözlərimizə, qəlblərimizə, eşlərimizə, nəslimizə və bizə bərəkət ehsan et. Tövbəmizi qəbul et. Şübhəsiz, Sən tövbələri çox qəbul edənsən, çox mərhəmətlisən. Bizi nemətlərinə şükür edənlərdən, nemətlərinlə Səni mədh edənlərdən, bu nemətləri qəbul edənlərdən et və bu nemətlərini bizə tamamla.

➢Allahım! Bizi pis əxlaqdan, pis arzulardan, pis əməllərdən və pis xəstəliklərdən uzaqlaşdır.

➢Allahım! Bizim hesabımızı asanlaşdır.

➢Allahım! Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəlcə ibadət etmək üçün bizə yardım et.

➢Allahım! Səndən tərk edilməyən bir iman, tükənməyən nemət və əbədilik cənnətinin ən yüksəkliyində Muhamməd (s.a.v) Əfəndimizlə dostluğu niyaz edirəm.

➢Allahım! Bizi nəfsimizin şərindən qoru, işimizi ən yaxşı şəkildə etməyimiz üçün bizə qərarlılıq ver. Gizli və aşkar, yanılaraq və qəsdən, bilərək və bilməyərək işlədiyimiz günahlarımızı bağışla.

➢Allahım! Borcun qalib gəlməsindən, düşmənin qalib gəlməsindən və düşmənin bizi ələ salmasından Sənə sığınırıq.

➢Allahım! Səndən Cənnəti istəyir, Cəhənnəm atəşindən də Sənə sığınırıq. (3 dəfə)

➢Allahım! Bizi bağışla, bizi hidayət et, bizə ruzi ver, bizə can sağlığı ver. Qiyamət günündə yer darlığından Sənə sığınırıq.

➢Allahım! Məni qulağımdan və gözümdən faydalandır. Bunları nəslimizə də nəsib et. Bizə zülm edənlərə qarşı bizə yardım et və bizim intiqanımımızı Sən al.

➢Allahım! Şükür (tərif) Sənin üçündür. Səndən başqa haqq ilah yoxdur. Sən Mənnansan, yaxşılıq və ehsanın boldur. Sən göyləri və yeri yoxdan yaradansan, ey ucalıq və ikram sahibi və ey Hayy və Qayyum.

➢Allahım! Şükür (tərif) Sənin üçündür. Göylərin və yerin, ikisi arasındakı şeylərin idarəçisi Sənsən. Şükür (tərif) Sənin üçündür, göylərin və yerin ikisi arasındakı şeylərin mülkü və hökmranlığı Sənindir. Şükür (tərif) Sənin üçündür, göy-lərin və yerin ikisi arasındakı

şeylərin nuru Sənsən. Şükür (tərif) Sənin üçündür, göylərin və yerin ikisi arasındakı şeylərin məliki Sənsən. Şükür (tərif) Sənin üçündür, Sən Haqsan, vədin haqdır, Sənə qovuşmaq haqdır, sözün haqdır, Cənnət haqdır, Cəhənnəm haqdır, peyğəmbərlər haqdır, Muhamməd Mustafa (s.a.v) haqdır, qiyamət haqdır.

➤Allahım! Sənə təslim oldum, Sənə iman etdim, Sənə təvəkkül etdim, Sənə yönəldim. Sənin düşmənini düşmən bildim və Sənin hökmünə razı oldum. İşlədiyim və işləyəcəyim, gizli və aşkar bütün günahlarımızı bağışla. Önə keçirən də Sənsən, geridə buraxan da Sənsən. Səndən başqa haqq ilah yoxdur. Güc və qüvvət ancaq Allahdandır.

➤Allahım! Hidayət verdiklərin arasında bizə də hidayət ver, sağlamlıq verdiklərin arasında bizə

də sağlamlıq ver. Dost etdiklərin arasında bizi də dost et. Təqdir etdiyin şeylərin şərindən bizləri qoru. Şübhəsiz, yalnız Sən hökm edərsən, Sənə hökm edilməz. Sənin dost etdiyin zillətə düşməz. Sən mübarəksən və çox ucasan.

➤Allahım! Qulun və Muhammməd Mustafa aleyhissəlamın və saleh qulların Səndən istədikləri xeyri və yaxşılığı biz də istəyirik. Muhammməd Mustafa (s.a.v) və saleh qullarının Sənə sığındıqları şərdən biz də Sənə sığınırıq.

➤Allahım! Sən bizim Rəbbimizsən, Səndən başqa haqq ilah yoxdur. Bizi Sən yaratdın, biz Sənın qullarınıq. Gücümüzün yetdiyi müddətcə Sənə verdiyimiz söz və vəd üzərindəyik. Etdiklərimizin şərindən Sənə sığınırıq. Bizə olan nemətini və günahlarımızı qəbul və etiraf edirik. Bizləri bağışla. Şübhəsiz, günahları ancaq Sən bağışlayırsan…

➢Allahım! Pislərin şərindən, rüsvayçıların hiyləsindən və xeyir məqsədi ilə qapımıza gələnlər xaric, hər qapımızı döyənin şərindən bizləri qoru, ey Əziz və ey Ğaffar.

➢Allahım! Səndən qulağımızda, gözümüzdə, yaradılışımızda, əxlaqımızda, ailəmizdə və işimizdə bərəkət istəyirik. Yaxşılıqlarımızı qəbul et. Səndən Cənnətdə yüksək dərəcələr istəyirik.

➢Allahım! Bütün günahlarımızı bağışla. Böyüyünü, kiçiyini, ilkini, sonuncusunu, gizlisini, açığını bağışla.

➢Allahım! Hər cür şükür, tərif Sənin üçündür.

➢Allahım! Sənin bol-bol verdiyini tutub əngəlləyəcək kimsə yoxdur. Sənin tutub əngəllədiyini də verə biləcək kimsə yoxdur. Sənin azdırdığına doğru yol göstərəcək və hidayət göstərdiyini də azdı-

racacaq kimsə yoxdur. Sənin mane olduğuna verəcək, verdiyinə də mane olacaq kimsə yoxdur. Sənin uzaqlaşdırdığını yaxınlaşdıracaq, yaxınlaşdırdığını da uzaqlaşdıracaq kimsə yoxdur.

➤Allahım! Bərəkətini, rəhmətini, lütfunu və ruzini bizə bol-bol ver.

➤Allahım! Səndən kasıbçılıq günündə nemət, qorxu günündə əmniyyət istəyirik.

➤Allahım! Bizə verdiklərinin şərindən və verməyib əngəllədiklərinin şərindən Sənə sığınırıq.

➤Allahım! Bizə imanı sevdir və onu qəlblərimizdə bəzə. Bizə küfr, günah və üsyana nifrət etdir. Bizi doğru yolda olanlardan eylə.

➤Allahım! Bizi müsəlman olaraq vəfat etdir, müsəlman olaraq dirilt. Fitnəyə və utancverici hallara düşmədən bizi salehlər zümrəsinə qat.

➢Allahım! Sənin peyğəmbərlərini öldürən və Sənin yoluna əngəl qoyan kafirləri həlak et. Onların üzərinə cəzanı və əzabını göndər.

➢Allahım! Özlərinə kitab göndərilən kafirləri də həlak et, ey gerçək ilah (Amin).

➢Allahım! Bizləri bağışla. Bizə mərhəmət et. Bizi hidayət et. Bizə sağlamlıq ver. Bizə ruzi-bərəkət ver. Bizlərə yardım et. Bizləri ucalt.

➢Allahım! Bizi artır, əskiltmə, bizi şərəfli et, alçaltma, bizə əta et, bizi məhrum etmə, bizi üstün et, başqalarını bizdən üstün etmə, bizləri məmnun et, Sən də bizdən məmnun ol.

➢Allahım! Bizləri gözəl yaratdığın kimi əxlaqımızı da gözəlləşdir.

➢Allahım! Bizə əzmkarlıq ver, bizi hidayət edən və hidayət olunmuşladan et.

➤Allahım! Bizə hikmət ver, kimə hikmət verilmişsə, ona bol yaxşılıq verilmiş deməkdir.

İsmi ilə yerdə və göydə heç bir şeyin zərər verə bilməyəcəyi Allahın adı ilə. O haqqı ilə eşidən və hər şeyi biləndir.

Şanı uca, çox güclü, dəlili sağlam, ərkanı qüvvətli Allahın adı ilə. Allahın dilədiyi olur. İnsan və cin, hər cür şeytandan Allaha sığınıram.

Yaratdığı şeylərin şərindən Allahın nöqsansız kəlmələrinə sığınıram.

Böyük Allahın zatına sığınıram. Ondan daha böyüyü yoxdur.Yaratdıqlarının, yoxdan var edib icad etdiklərinin şərindən, səmadan enənin şərindən, ondan yüksələnin şərindən, yerə girənin və ondan çıxanın şərindən, gecə və gündüz fitnələrinin şərindən, xeyirlə qapımızı döyən xaric, hər qapımızı döyənin şərindən, Allahın xeyir və pisliyin kənarına

cıxmayacağı nöqsansız kəlmələrinə sığınıram.

Mülk/hakimiyyət Allaha aid olduğu halda səhərə çıxdıq. O, təkdir, Qahhardır. Şükür və tərif Ona məxsusdur.

Allahdan başqa haqq ilah yoxdur. O, təkdir, ortağı yoxdur. Mülk və hakimiyyət Onundur, şükür/tərif Onadır. Onun hər şeyə gücü yetər.

➢Rəbbim! Səndən bu günün və bu gündən sonrasının xeyrini istəyirik.

➢Rəbbim! Tənbəllikdən, ixtiyarlıqdan, ağıl zəifliyindən, dünyanın fitnəsindən və qəbir əzabından Sənə sığınırıq.

Mülk/hakimiyyət aləmlərin Rəbbi Allaha aid olduğu halda səhərə çıxdıq.

➢Allahım! Səndən bu günün xeyrini, fəthini, zəfərini, nurunu, bərəkətini və hidayətini istəyirik və bu gündən sonrasının şərindən Sənə sığınırıq.

➢Allahım! Sənin yardımınla səhərə çıxdıq və yenə Sənin yardımınla axşama yetişirik. Sənin yardımınla ölürük. Və dönüş Sənədir.

Mülk/hakimiyyət Allahın olduğu halda səhərə çıxdıq. Həmd/tərif Allahadır. Onun ortağı yoxdur. Ondan başqa haqq ilah yoxdur. Dönüş Onadır.

➢Göylərin və yerin yaradıcısı, gizlini və aşkarı bilən Allahım! Ey hər şeyin Rəbbi və Məliki Rəbbim! Səndən başqa haqq ilah olmadığına şahidlik edirəm. Nəfsimizin şərindən, şeytanın və şirkinin şərindən, nəfsimizə pislik etməkdən və ya bir müsəlmana pislik etməkdən Sənə sığınırıq.

➢Allahım! Sənin ortağı olmayan tək ilah olduğuna, Muhamməd aleyhissəlamın (s.a.v) Sənin qulun və rəsulun olduğuna, Səni Ərşini daşıyanları, mələkləri və bütün

yaradılanları şahid tutaraq səhərə çıxdıq. (3 dəfə)

➢Allahım! Dinimiz, dünyamız, ailəmiz və malımız haqqında Səndən əfv və salamatlıq istəyirik!

➢Allahım! Qüsurlarımızı gizlət, qorxularımızdan bizləri əmin et.

➢Allahım! Bizi önümüzdən, arxamızdan, sağımızdan, solumuzdan, üstümüzdən qoru. Yerə bataraq həlak edilməkdən əzəmətinə sığınırıq.

Rəbb olaraq Allahı, din olaraq İslamı, nəbi və rəsul olaraq Muhamməd aleyhissəlamı (s.a.v) qəbul etdim və razı oldum.

➢Allahım! Bizə və ya yaratdıqlarından hər hansı birinə gələn hər hansı bir nemət sadəcə Səndəndir, Sənin ortağın yoxdur, həmd/tərif Sənədir, şükür Sənədir.

➢Allahım! Vücudumuza sağlamlıq ver, qulağımıza sağlamlıq ver,

gözümüzə sağlamlıq ver. Səndən başqa haqq ilah yoxdur (3 dəfə).

Allahım! Küfürdən, fəqirlikdən və qəbir əzabından Sənə sığınıram. Səndən başqa haqq ilah yoxdur (3 dəfə).

Allaha şükür/tərif edərək bütün nöqsanlıqlardan tənzih edirəm. Qüvvət ancaq Allahdandır. Allahın dilədiyi olur, diləmədiyi olmaz. Bilirəm ki, Allahın hər şeyə gücü yetir və Onun elmi hər şeyi əhatə edir.

İslam fitrəti, ixlas kəlməsi, Peyğəmbərimiz Muhammədd aleyhissəlamın (s.a.v) dini üzərinə, müşriklərdən olmayan, müsəlman və hənif olan atamız İbrahimin milləti olaraq səhərə çıxdıq.

➢Ey Hayy və Qayyum! Ey göyləri və yeri yoxdan var edən! Ey ucalıq və ehsan sahibi! Səndən başqa haqq ilah yoxdur. Sənin rəhmətinlə yardım istəyirik. Bizim hər işimizi yoluna

qoy. Bizi göz açıb-yumana qədər bir an belə nəfsimizlə baş-başa buraxma.

➤Allahım! Sən mənim Rəbbimsən, Səndən başqa haqq ilah yoxdur. Məni Sən yaratdın, mən Sənin qulunam. Gücüm yetdiyi qədər Sənə verdiyim söz və vəd üzrəyəm. Etdiklərimizin şərindən Sənə sığınıram. Mənə olan nemətini və günahımı qəbul və etiraf edirəm. Bizi bağışla. Şübhəsiz, günahları yalnız Sən əfv edirsən.

➤Allahım! Zikr edilənlərin ən layiqlisi Sənsən. İbadən edilənlərin ən layiqlisi Sənsən. Özündən istənilən kimsələrin ən çox yardım edəni Sənsən. İstənilənlərin ən comərdi Sənsən. Verənlərin ən çox verəni Sənsən. Sən məliksən, Sənin ortağın yoxdur. Sən tayı-bərabəri olmayan Təksən. Sənin zatından başqa hər şey mütləq həlak olacaqdır. Sənin icazən olmadıqca əsla Sənə itaət edilməz. Sənin bilgin xaricində Sənə

üsyan edilməz. İtaət edilir, təşəkkür edərsən. Üsyan edilir, əfv edərsən. Ən yaxın şahid və ən yaxın qoruyucu Sənsən. Nəfslərə Sən əngəl olub, pərçimlərindən Sən yaxalayırsan. Geridə buraxılan izləri Sən yazırsan, əcəlləri Sən təyin edirsən. Qəlbləri bilənsən, gizli Sənə ayandır. Halal Sənin halal qıldığın, haram Sənin haram qıldığındır. Din Sənin göndərdiyin şəriətindir. Yaratmaq Sənin yatarmandır, qul Sənin qulundur. Sən çox şəfqətli və çox mərhəmətli Allahsan. Göyləri və yeri aydınladan Zatının nuru ilə bu səhər bizim dualarımızı qəbul etməni və qüdrətinlə bizləri alovdan qorumanı niyaz edirik. (7 dəfə)

Allah mənə yetər. Ondan başqa haqq ilah yoxdur. Mən Ona təvəkkül etdim. O, böyük Ərşin sahibidir.

➢Allahım! Kədərdən və hüzndən, acizlik və tənbəllikdən, xəsislik və

qorxaqlıqdan, borcun belimizi bükməsindən və insanların bizə qalib gəlməsindən Sənə sığınırıq.

Mülk/hakimiyyət, böyüklük, əzəmət, yaratma, əmr, gecə və gündüz və bu ikisi arasında qurban edilən şeylər Allaha aid olduğu halda səhərə çıxdıq.

➢Allahım! Səndən bəladan sonra riza göstərməyi və ölümdən sonra rahat bir həyat istəyirik. Üzünə baxmanın ləzzətini, zərər verici bir sıxıntı və azdırıcı bir fitnəyə uğramadan Sənə qovuşmanın həsrətini diləyirəm. Zülm etməkdən, zülm edilməkdən və ya hücum etməkdən, hücuma məruz qalmaqdan və ya Sənin bağışlamayacağın bir xəta və ya günahı işləməkdən Sənə sığınırıq.

Ey göylərin və yerin yaradıcısı! Görünən və görünməyən hər şeyin bilicisi! Ey Cəlal və İkram sahibi! Bu dünya həyatında Sənə söz verirəm.

Şahid olaraq Səni göstərirəm ki, şahid olaraq Sən yetərsən, Səndən başqa heç bir ilah yoxdur. Sən birsən. Heç bir ortağın yoxdur. Muhamməd Mustafa (s.a.v) Sənin qulun və rəsulundur. Yenə şəhadət edirəm ki, Sənin vədin haqdır, Sənə qovuşmaq haqdır. Cənnət haqdır. Cəhənnəm haqdır. Qiyamət mütləq gələcəkdir, bunda şübhə yoxdur. Qəbirlərdəkiləri Sən dirildəcəksən. Əgər Sən məni öz nəfsimlə baş-başa buraxsan, mən məhv olar, məni eyib, günah və xətalarımla baş-başa buraxmış olarsan. Sənin rəhmətindən başqa heç bir şeyə güvənmirəm. Günahlarımızın hər birini əfv et. Tövbələrimizi qəbul et. Çünki Sən tövbələri çox qəbul edənsən və çox mərhəmətlisən.

➢Allahım! Ömrün ən bitkin (ixtiyar) dövrünə çatmağımızdan Sənə sığınırıq.

➢Allahım! Bizi əməllərin və əxlaqın ən gözəlinə yönləndir. Bunların ən gözəlinə ancaq Sən yönləndirirsən. Bunların pisindən bizləri qoru. Bunların pislərindən də ancaq Sən bizləri qoruyarsan.

➢Allahım! Bizlərə düzgün bir dini həyat, geniş bir ev və bərəkətli ruzi nəsib eylə.

➢Allahım! Zülmət və qəflətdən, alçaldılma və məskənətdən, küfr və əxlaqsızlıqdan, təkəbbür və ikiüzlülükdən Sənə sığınırıq. Dilsizlik və karlıqdan, cüzam və pis xəstəliklərdən Sənə sığınırıq.

➢Allahım! Yüksəklikdən yuvarlanıb yıxılmaqdan, dağıntı altında qalmaqdan, boğulmaqdan və yanğından Sənə sığınırıq. Ölüm anında şeytanın hücumundan Sənə sığınırıq. Yolunda savaşarkən arxamızı döndərib qaçarkən ölməkdən Sənə sığı-

nırıq. Zəhərli bir heyvan tərəfindən sancılıb ölməkdən Sənə sığınırıq. Qəlbin möhürlənməsinə yol açacaq acgözlük və tamahdan Sənə sığınırıq.

➢Allahım! Səndən dində səbat, doğru yolda qərarlılıq istəyirik. Nemətinə şükür etməyi və Sənə gözəlcə qulluq etməyi istəyirik. Təmiz bir qəlb və doğrunu söyləyən bir dil istəyirik. Sənin bildiyin yaxşılıqları Səndən istəyirik, Sənin bildiyin pisliklərdən Sənə pənah aparırıq. Sənin bildiyin günahlardan bağışlanmamızı istəyirik. Sən qeybləri bilənsən.

➢Allahım! Səndən xeyirli işlər etməmizi, pis əməllərimizdən uzaqlaşmamızı və yoxsulları sevməmizi niyaz edirik. Quluna bir fitnə niyaz etdiyin zaman bizləri o fitnəyə uğramadan vəfat etdir.

➢Allahım! Bizləri Özünə, mələklərinə, peyğəmbərlərinə və bütün yaratdıqlarına sevdir.

➢Allahım! Bizə Özünü canımızdan, ailəmizdən, mal-mülkümüzdən, övladlarımızdan və susayarkən içilən soyuq sudan daha çox sevdir.

➢Allahım! Ömrümüzün sonunu və işlərimizin sonunu xeyir eylə. Sənə qovuşduğumuz zaman günlərimizi xeyirli et.

➢Allahım! Bizi çox səbirli et. Bizi çox şükür edənlərdən et. Bizi öz gözümüzdə kiçik, insanların gözündə isə böyük et. Rəbbim, bizi bağışla. Rəbbim bizləri bağışla, bizə mərhəmət et, bizi doğru yola yönəlt.

➢Allahım! Səndən təmiz bir həyat, gözəl bir ölüm və utanılmayacaq bir aqibət istəyirik.

➢Allahım! Səndən yaxşı arzular etməyimizi, duanın xeyrlisini, müvəffəqiyyətin xeyirlisini və savabın çoxunu istəyirik. Bizə əzmkarlıq və qətiyyət ver. Tərəzimizin savab

gözünü ağır eylə. Bizə kamil bir iman nəsib et. Dərəcəmizi yüksəlt. Dualarımızı qəbul et. Xətalarımızı bağışla. Səndən Cənnətin ən yüksək dərəcələrini istəyirik. Amin.

➢Allahım! Səndən xeyrin açarlarını, nəticələrini, hər tərəfli olanını, birincisini, sonuncusunu, açığını, gizlisini və Cənnətin ən yüksək dərəcələrini istəyirik. Amin.

➢Allahım! Gətirəcək və edəcəklərimiz işlərin xeyirlisini, gizli və açıq olan işlərin xeyirlisini Səndən istəyirik. Səndən Cənnətin yüksək dərəcələrini istəyirik. Amin.

➢Allahım! Səndən zikrimizi ucaltmanı, pis əməllərimizi əvf etməni, qəlbimizi təmizləməni, iffətimizi-namusumuzu qorumanı və günahlarımızı bağışlamağını arzu edirik.

➢Allahım! Səndən bizim üçün qulağımıza, gözümüzə, bədənimizə,

ruhumuza, həyatımıza və əməlimizə bərəkət verməni arzu edirik. Yaxşılıqlarımızı dərgahında qəbul eylə. Səndən Cənnətin yüksək dərəcələrini yalvararaq istəyirik. Amin.

➢Allahım! Bizi bağışla. Bizə mərhəmət et. Bizdən razı ol. Bizdən qəbul eylə. Bizi Cənnətinə daxil eylə. Bizi atəşdən qoru. Bizim bütün işlərimizi yoluna qoy.

➢Allahım! Bütün günahlarımızı bağışla. Bütün qüsurlarımızı gizlət. Bütün sıxıntılarımızı götür. Bütün borclarımızı ödəməyi nəsib et. Dünya və axirətdə Sənin rizana uyğun və bizim yaxşılığımıza olan bütün ehtiyaclarımızı qarşılamağı nəsib et. Ey mərhəmətlilərin ən mərhəmətlisi.

➢Allahım! Səndən qəlbimizə hidayət verəcəyin, işlərimizi toparlayacağın, qarışıqlığımızı götürəcəyin, daxilimizin paklığını qoruyacağın, zahirimizi daha yaxşı hala gəti-

rəcəyin, üzümüzü ağartacağın, bizə doğruluğu ilham edəcəyin, sevgimizə qarşılıq verəcəyin və bizi bütün pisliklərdən qoruyacağın rəhmətini istəyirik.

➤Allahım! Bizə sadiq bir iman, sonrasında küfrün olmadığı kamil bir inanc, dünya və axirətdə Sənin ikramının şərəfinə çatacağımız bir rəhmət ver.

➤Allahım! Hökm günündə Səndən qurtuluşu, xoşbəxtlərin yaşantısını, şəhidlərin mərtəbəsini, peyğəmbərlərin dostluğunu və düşmənlərə qarşı mütləq bir zəfər istəyirik.

➤Allahım! Dünyagörüşüm az, elmim və əməlim zəif olsa da, ehtiyacımızı Sənə ərz edirəm. Sənin rəhmətinə möhtacam. Ey bütün işlərin hakimi və könüllərin təbibi! Dənizləri bir-birinə qarışmaqdan qoruduğun kimi, bizləri də Cəhənnəm əzabından, qəbir əzabından və yox olmağı istəyəcək

duruma düşməkdən qorumanı istəyirik.

➢Allahım! Dünya görüşüm az, elmim və əməlim zəif olsa da, istəməyi bacarmasam da, qullarından birinə vəd etdiyin bir xeyri və ya qullarından birinə verdiyin bir xeyri bizə də verməni rica edirik. Onu Sənin rəhmətinlə Səndən istəyirik, ey aləmlərin Rəbbi.

➢Ey sağlam ipin və sağlam dinin sahibi olan Allahım! Cəza və təhdid günündə Səndən əmniyyət və güvənliyi, sonsuzluq günündə Cənnəti, Sənə yaxın olanlarla, şəhidlərlə, rüku-səcdə edənlərlə və sözünü yerinə yetirənlərlə bərabər olmağı istəyirik. Sən çox mərhəmətlisən. Sən qullarını çox sevən və sevilənsən. Sən dilədiyini edənsən.

Tənzih edilməyə sadəcə özü layiq olan zatı tənzih edirəm. Ehsan və nemətlərin sahibini tənzih edirəm.

Əzəmət və mükafatların sahibini tənzih edirəm. Elmi her yeri əhatə edəni tənzih edirəm.

➢Allahım! Səndən dində, dünyada əfv və salamatlıq istəyirik.

➢Allahım! Səndən imanda davamlılıq, gözəl əxlaqla birlikdə bir iman və davamlı müvəffəqiyyət istəyirik. Səndən rəhmət və salamatlıq istəyirik. Sənin bağışlamanı və razı olmağını istəyirik.

➢Allahım! Səndən sağlıq və iffət, gözəl əxlaq və qədərə riza istəyirik.

➢Allahım! Bizi hidayətə aparan və hidayət üzərində olanlardan et, yolunu azanlardan etmə. Dostların üçün dost, düşmənlərin üçün düşmən olanlardan eylə ki, Səni sevənləri Sənin sevdiyin kimi biz də sevə bilək. Sənə qarşı gələnlərə düşmən olduğun kimi biz də düşmən ola bilək.

➤Allahım! Nəfsimizin şərindən, hərəkət edən hər bir canlının şərindən Sənə sığınırıq. Sən onları pərçimindən tutub yaxalayarsan. Mənim Rəbbim doğruluqlarladır.

➤Narahatlığımızı aradan qaldıran, qəm və kədəri götürən, çətinlikdə qalanların duasını qəbul edən, dünya və axirətin Rəhmanı və Rəhimi olan Allahım! Bizə rəhmətinlə elə bir rəhm et ki, artıq Səndən başqasının rəhmətinə möhtac olmayaq.

Heç bir şeyin özünə gücü yetmədiyi Allahla, Allahın çatıla bilinməyən və zərər verilə bilinməyən gücü ilə, Allahın diqqətimizdən qaçırdığımız, əl çatmaz səlahiyyəti ilə və Allahın bütün gözəl isimləri ilə iblisdən, insan və cin şeytanlarının şərindən, gizli və aşkar hər şeyin şərindən, gecə gizlənib gündüz ortaya çıxan və ya gündüz gizlənib gecə ortaya çıxanların şərindən, yaratdığı

və yoxdan var etdiklərinin şərindən, iblis və əsgərlərinin şərindən və qədərlərini əlində tutduğu bütün hərəkətli canlıların şərindən Allaha sığınaraq səhərə çıxdıq.

Musanın, İsanın və vəfalı İbrahimin (aleyhimüssəlam) sığındıqlarından, yaratdığı və yoxdan var etdiyi şeylərin şərindən, iblisin və əsgərlərinin şərindən və qaçılacaq şeylərin şərindən Allaha sığınırıq.

➢Allahım! Səndən Sənin yanındakı xeyirləri istəyirik. Lütfünlə bizə nəsib et. Rəhmətini bizlərin üzərinə yay. Bərəkətlərini bizim üzərimizə endir.

➢Allahım! Hər cür həmd Sənə məxusudur. Mülk\hakimiyyət tamamilə Sənə aiddir. Bütün xeyir və yaxşılıqlar Sənin hökmündədir. Açıq, gizli bütün işlər Sənə bəllidir. Həmd/tərif edilməyə yalnız Sən layiqsən.Sənin hər şeyə gücün yetər.

➢Allahım! Keçmiş günahlarımızın hamısını bağışla. Ömrün qalan hissəsində bizləri günah işləməkdən qoru. Bizi razı olacağın gözəl əməllərlə ruziləndir.

➢Allahım! Mən zəifəm, rizana uyğun əməllərlə bizlərə qüvvət ver. Əlimizdən tut, bizləri xeyir və yaxşılığa götür. İslamı gözləntimizin sonu et.

➢Allahım! Peyğəmbərlərini yalanlayan və Sənin yoluna maneə çıxardan kafirləri məhv et. Cəzanı və əzabını onların üzərinə tök.

➢Allahım! Hücumdan, taundan, vəbadan, cana, mala-mülkə və övlada gələ biləcək böyük bir bəlalardan Sənə sığınırıq. Allahu əkbər, Allahu əkbər. Qorxduğumuz və ehtiyyat etdiyimiz şeylərdən Allahu əkbər, Allahu əkbər. Bağışlanıncaya qədər günahlarımız sayısınca Allahu əkbər.

➢Allahım! Hücumdan, taundan, vəbadan, bəlanın hücumundan, ani ölümdən, qızdırmadan, ağır qəzadan, pis bəlalardan Sənə sığınırıq. Çəkilməz bəladan, düşmənlərin sevinməsindən Sənə sığınırıq. Ey Hayy, ey Qayyum! Ey Cəlal və ikram sahibi! Bizdən əzabı qaldır, biz möminlərik. Bizdən Cəhənnəm əzabını uzaqlaşdır, şübhəsiz, onun əzabı daimidir.

➢Ey Rəbbimiz! Biz nəfsimizə zülm etdik, bizi bağışlamaz və bizə mərhəmət etməzsən, itirənlərdən olarıq. Mərhəmətini diləyirik ey aləmlərin Rəbbi! Ey Allah! Ey Əziz! Ey Hafiz! Ey Allah! Ey Rafi!

➢Allahım! Dostlarını qəm və kədərdən dərhal qurtar və onlara sağlıq ver. Bizim həyatımızı artır. Çünki Sən axirət xalqına əbədi həyat bağışlayan Allahsan. Bizə uzun bir ömür, sağlıq içində və Sənin rizana

uyğun əməllərlə keçən uzun bir həyat ver. Bunu edəcək olan yalnız Sənsən. Dünyada da, axirətdə də Sənin buna gücün yetər.

Qəzəbindən və əzab verici cəzasından, qullarının şərindən, şeytanların vəsvəsəsindən və bizə gəlmələrindən Allahın nöqsansız kəlmələrinə sığınırıq.

Alnından tutduğun (qədərinə hökm etdiyin) hər canlının şərindən tam olan kəlmələrinlə kərim üzünə sığınırıq.

➢Allahım! Borcları və günahları Sən təmizləyirsən.

➢Allahım! Sənin ordun əsla məğlubiyyətə uğramaz. Sən vədinə xilaf çıxmazsan. Səni təsbeh edər, Sənə şükür/tərif edərik. Özündən başqa haqq ilah olmayan, mənim və hər şeyin ilahı olan Allaha sığındım. Mənim Rəbbimə və hər şeyin

Rəbbinə sığındım. Ölməyən diriyə təvəkkül etdim. Bütün pislikləri, güc və qüvvətin həqiqi qaynağı olan uca Allahın yardımı ilə uzaqlaşdırmaq istəyirəm. Allah bizə yetər. O nə gözəl vəkildir. Qullara qarşı Rəbb bizə yetər. Yaradılanlara qarşı Yaradan bizə yetər. Ruzi verənlərə qarşı Rəzzaq (rizq verən) bizə yetər. Allah bizə yetər. Dua edəni Allah eşidir. Allahdan sonra başqa bir son yoxdur. Ondan başqa bir ilah yoxdur. Ona təvəkkül etdim. O əzəmətli Ərşin sahibidir.

➢Allahım! Qüvvətimin zəifliyini, çarəsizliyimi, insanlara qarşı gücsüzlüyümü Sənə şikayət edirəm. Sənin rəhmətinə sığınırıq, ey aləmlərin Rəbbi. Sən əzilənlərin Rəbbisən. Bizi kimə buraxırsan? Həyatımızı Cəhənnəmə çevirən düşmənəmi, yoxsa zalımlaramı? Əgər mənə qarşı qəzəbli deyilsənsə, heç bir şey mənim

üçün önəmli deyil. Sənin mənə ehsan etdiyin sağlıq mənim üçün çox yararlıdır. Səndən bizə qəzəblənməni və üzərimizə əzabın enməsini deyil, qaranlıqları aydınladan dünya və axirət işlərini düzəldən nurunu istəyirik. Razı oluncaya qədər məni cəzalandırmaq səlahiyyəti Sənindir. Güc və qüvvət ancaq Səndəndir.

➤Allahım! Bizə faydalı olanları öyrət, öyrətdiklərini də bizə yararlı et və elmimizi artır.

Ey İbrahim aleyhissəlama öyrədən, bizə də öyrət. Ey Süleyman aleyhissəlama anladan, bizə də anlat.

➤Allahım! Məni və müsəlmanları kədər və narahatlıqlardan qurtar, hər cür sıxıntıdan bir çıxış yolu göstər, hər bəladan bir qurtuluş ver.

➤Allahım! Kim müsəlmanlara bir pislik etmək istəyərsə, ona özünü məşğul edəcək bir müsibət ver.

➢Allahım! Mən onların qarşısına Səninlə çıxmaq istəyirəm və onların şərindən Sənə sığınıram.

➢Allahım! Məni, ata-anamı, müsəlman kişiləri, müsəlman qadınları və onların həyatda olan və ölənlərini bağışla. Şübhəsiz, Sən yaxınsan və duaları qəbul edənsən.

➢Allahım! Qəlbimizi münafiqlikdən, əməlimizi riyadan, dilimizi yalandan, gözümüzü xainlikdən təmizlə. Şübhəsiz, Sən xain baxışları və qəlblərin gizlədiklərini bilənsən.

➢Allahım! Sənə qovuşmağın hüzurunu dadacaq, Sənin bağışlamana ümid edəcək və Sənin hökmünə razı olacaq bir nəfs istəyirik.

➢Allahım! Səndən qəlbimizə nüfuz edəcək bir iman və elə bir əmin iman istəyirik ki, artıq Sənin bizim üçün yazmadıqca, bizə heç bir şeyin isabət etməyəcəyini, bizə isabət edənin də

bizdən əsla şaşmayacağını və bizim üstümüzdən keçənin də bizə əsla toxuna bilməyəcəyinə əmin olaq.

➢Allahım! Səndən hidayətə çatacağımız bir iman, ardınca gedəcəyimiz bir nur və yetərli halal bir ruzi istəyirik.

➢Allahım! Bizə Səni bütün qəlbimizlə sevməyi və bütün gücümüzlə Səni razı etməyi nəsib eylə.

➢Allahım! Mizan dolusu elmin, Zatının rizasının çatdığı yerə qədər və Ərşin ağırlığınca Səni təsbeh edirik! Mizan dolusu elmin, Zatının rizasının çatdığı yerə qədər və Ərşin ağırlığınca lâ ilâhə iləllâh deyirik. Mizan dolusu elmin, Zatının rizasının çatdığı yerə qədər və Ərşin ağırlığınca Allahu əkbər deyirik.

➢Allahım! Ərşinin üstünü bildiyin kimi, ərzinin altındakını da bilirsən. Qəlblərdəki vəsvəsələr, Sənin ya-

nında açıq-aşkardır. Sözün açığı gizlisi kimi Sənin bilgin daxilindədir. Hər şey Sənin əzəmətinə boyun əyər. Hər sultan Sənin səltənətin qarşısında əyilir. Dünya və axirətdəki bütün işlər Sənin hökmündədir. Başımıza gələn bütün kədər və sıxıntılardan bizləri qurtar və bizləri fərəhlət.

➢ Allahım! Günahlarımızı əfv etmən və xətalarımızı bağışlamağın, məni qüsurumdan dolayı layiq olmadığım şeyləri Səndən istəməyə təşviq edir. Sənə güvənərək dua edirəm. Tanıyan birisi olaraq Səndən istəyirəm. Səninlə aramızdaki mövzularda bizə yaxşılıqlar edənsən, biz isə özümüzə pislik edənik. Sən bizə nemətlərinlə sevgini göstərənsən, biz isə qüsurlarımızla Səni qəzəbləndiririk. Ancaq Sənə olan güvənim məni Sənə qarşı cəsarətləndirir. Lütfün və ehsanınla bizə dön. Şübhəsiz, Sən tövbələri çox qəbul edən və çox

mərhəmət edənsən. Səndən başqa haqq ilah yoxdur. Sən yoxdan var edənsən, Səndən öncə kimsə yoxdur. Sən davamlı var olansan, qafil deyilsən. Sən heç ölməyənsən. Görülən və görülməyənləri yaradan Sənsən. Sən hər an yaratma halındasan. Sənin rəhmətin və elmin hər şeyi əhatə edir, ey Allahım, ey Rəhman, ey Rəhim, ey Kərim, ey Əhad, ey Saməd, ey Hayy, ey Qayyum! Səndən başqa haqq ilah yoxdur.

➢ Ey Rəbbimiz! Biz Sənin qullarınıq. Sənin yolundayıq. Bütün xeyir və yaxşılıqlar üçün bizə yol göstər.

➢ Allahım! Mənim qəlbimi qullarına qarşı şəfqətlə doldur. Bizi pis qullarına möhtac etmə, ey mərhəmətlilərin ən mərhəmətlisi. Ey Vədud! Ey Uca Ərşin sahibi! Ey dilədiyini edən! Əl çatmaz izzətinə, zərər verilə bilinməyən mülkünə/hakimiyyətinə və Ərşini dolduran

nuruna sığınaraq Səndən istəyirik ki, bizi bu pisliklərdən mühafizə edəsən. Ey Muğis! Bizə yardım et. Ey Muğis! Bizə kömək et.

Yaratdığı və yoxdan var etdiklərinin şərindən, torpağın aldındakıların şərindən, Rəbbimin, pərçimindən tutduğu hərəkət edən hər canlının şərindən Allahin izzətinə, əzəmətinə, gücünə, qüdrətinə və cəlalına sığınırıq. Şübhəsiz, mənim Rəbbim doğru yol üzrədir. Güc və qüvvət ancaq böyük və uca Allahdandır. O hər qaçanın və hər qorxanın sığındığıdır. Güc və qüvvət ancaq böyük və uca Allahdandır. Bizi, ailəmizi, mal-mülkümüzü və bütün verdiyin nemətlərini Sənin gücünlə qoruyuruq, ey bizim İlahımız və Mövlamız!

➢Allahım! Bizi nemətlərinə şükür edən, bəlalarına səbir edən və dostlarına yardım edənlərdən et.

➢Allahım! Qatındakı bəlaları verib də bizi qatındakı yaxşılıqlardan məhrum etmə.

➢Allahım! Səndən rahat bir həyat, bol ruzi-bərəkət və saleh əməl istəyirik.

➢Allahım! Bizlərə yalnız Sənə möhtac olmağın zənginliyini ver və Səndən basqasına möhtac olmağın kasıblığını vermə.

➢Allahım! Qusurlarımızı ört, bizi qorxularımızdan əmin et və kədərimizi xəfiflət.

➢Allahım! Sənə mükəmməl ibadət etməyin mükafatını ver. Rəhmətinin qapılarını açmaq və dözümlülük üçün bizləri müvəffəq et.

➢Allahım! Bizləri qoru və bizi tərk etmə.

➢Allahım! Bizi Öz güvənliyin, zəmanətin və ehsanın içinə al.

➢Allahım! Bizi bütün günahlarımızdan bağışlayaraq arındır, hər yöndən qoru və bütün kədərləri bizdən uzaqlaşdır.

➢Allahım! Ölümə və ölümün çətinliyinə, qəbrə və qəbrin zülmətinə\ əzabına, sırata və sıratda ayağımızı sürüşdürəcək təhlükələrə, qiyamətə və qiyamət qorxusuna qarşı bizə yardım et.

➢Allahım! Bizi yaşatdığın müddətcə işimizi, dinimizi gözəlləşdir, bizi bu dünyada saxladığın müddətcə bizə sağlıq ver. Bizlərə verdiklərini bərəkətləndir. Başımıza gətirdiklərinin şərindən bizləri qoru. Bizi vəfat etdirdiyin zaman bizlərə mərhəmət eylə. Bizi məzara qoyduqları zaman bizləri tənha buraxma. Bizi hesaba çəkdiyin zaman bizə lütfünlə mərhəmət eylə. Bizə imanı öyrətdiyin halda, onu bizdən geri alma.

➢Allahım! Xeyirli işlərdə bizə əzmkarlıq və qətiyyət ver. Ölümdən sonrakı sıxıntılardan bizləri qoru. Axirətdəki gedəcəyimiz yeri bizlər üçün xeyirli et. Sözümüzdə sadiq olmağı bizlərə nəsib eylə, ey bizim arzularımızın ən son qayəsi.

➢Allahım! Bizləri ümüdsizliyə düşürmə, hədəflərimizə çatdır, düşmənlərdən hifz eylə. Bizim işlərimizi yoluna qoy. Dini, dünyəvi və üxrəvi işlərimizdə bizim vəkilimiz ol. Bizə bol-bol tövbə edən bir qəlb ver, küfr edən və şübhə edən bir qəlb vermə. Bizləri bağışla. Bizləri hidayət et. Bizləri ruziləndir. Sən ruzi-bərəkət verənlənrin ən xeyirlisisən, ey mərhəmətlilərin ən mərhəmətlisi.

➢Allahım! İşlərimizi doğru edə bilməyimiz üçün Səndən doğru yol istəyirik. Nəfsimizin şərindən Sənə sığınırıq. Çox uca və lütfü, ehsanı bol olan Rəbbimi tənzih edirəm.

Ey gizli olanları bilən! Ey dərəcələri yüksəldən! Ey iradəsi ilə istədiyi quluna vəhy endirən Ərşin sahibi!

➢Ey günahları bağışlayan, tövbələri qəbul edən, əzabı çətin, lütfü bol olan Allahım! Səndən başqa haqq ilah yoxdur, dönüşümüz Sənədir. Allahdan başqa haqq ilah yoxdur. Allah böyükdür. Allahı şükür\tərif edərək təsbeh edirəm. Allahdan bağışlanmağımızı diləyirik. Güc və qüvvət ancaq Allahdandır. O, Əvvəl və Axırdır. Zahir və Batindir. O, hər şeyi haqqı ilə biləndir.

➢Allahım! Tövbə edib də sonradan təkrar işlədiyimiz günahlarımızdan ötrü Səndən bağışlanma istəyirik. Sənə söz verib yerinə yetirə bilmədiklərimizdən dolayı Səndən əfv diləyirik. Sənin rizan üçün etdiyimizi zənn etdiyimiz halda, qəlbimizə girən qarışıq duyğulardan dolayı Səndən bağışlanma niyaz edirik.

➢Allahım! Səni və peyğəmbərini anlamada bizi ixlaslı insanların mərtəbələrinə çatdıracaq və elmi ilə əməl edənlərin zümrəsinə daxil edəcək bir anlayışı bizə nəsib etmən üçün saleh qullarının və yaxın dostlarının Sənə təvəssül etdikləri ilə biz də Sənə təvəssül edirik.

➢Allahım! Bizi Cənnət bağlarına yerləşmək, Təsnim bağlarının meyvələrini dadmaq, sevinc və xoşbəxtlik dərinliyinin həzzini duymağı, ağzı möhürlü qabdan Cənnət şərabını içmək və ikram edilənlən sərin kölgəliklərin altinda kölgələnmək üçün ruhları yüksək cənnətlərdə dolaşanlardan, qəlblərinin əzmkarlığını təqvaya çatmaq üçün sərf edənlərdən et.

➢Allahım! Bizi səbir qapısını açanlardan, qorxu xəndəklərini yıxanlardan, şiddətli əzabdan qurtulanlardan və həva körpüsünü keçənlərdən eylə.

➢Allahım! Bizi özlərinə hidayətin əlamətləri göstərilənlərdən, qurtuluş yolu aydınladılanlardan, ixlas və imanın yolunda yürüyənlərdən et.

➢Allahım! Şübhəsiz, mənim nəfsim pisliyi əmr edir. Şeytan hər an sadəcə kiçik günahları deyil, məni böyük günahlara da düşürməyə çalışar. Mən onun tələsindən qurtulmaq istəyirəm. Sən məni müvəffəq etmədikcə mənim buna gücüm çatmaz. Yaxşılıqlar Səndəndir. Pisliklər Sənə aid deyil. Bizləri bağışla. Tövbələrimizi qəbul et. Bizi hidayət etdikdən sonra qəlbimizi azdırma. Bizə Kitab və Sünnətin bilgisini nəsib et. Əgər mənə yazığın gəlməsə və məni bağışlamasan, mən itirənlərdən olaram. Bizi doğru yola yönəlt. Bizləri tam olaraq bağışla. Bizləri əfv et. Şübhəsiz, Sən əfv edənsən. Bizə dində, dünyada və axirətdə xeyirlər nəsib et. Bu Sənin üçün çətin deyildir,

ey mərhəmətlilərin ən mərhəmətlisi. Ey özündən əvvəl heç bir şey olmayan və hər şeyin yaradıcısı olan Allah! Bizi pisliklərdən mühafizə et. Ey hər şeyin həlak olmasından sonra da var olmağa davam edəcək olan Allah! Səndən istəyirik, ey cəlal və ikram sahibi! Ey lütf və nemətlərin sahibi! Səndən başqa haqq ilah yoxdur. Ey aləmlərin Rəbbi! Ey mərhəmətlilərin ən mərhəmətlisi! Ey Hənnan! Ey Mənnan! Ey göyləri və yeri yoxdan var edən! Ey böyük Ərşin sahibi!

➤Allahım! Səni görürmüşük kimi, Səndən qorxanlarından et bizləri. Təqvan ilə bizləri xoşbəxt et. Sənə qarşı olan qüsurlarımızdan dolayı bizi hüzurundan qovma. Bizi hökmünə razı olanlardan eylə. Bizə zülm edənlərə qarşı yardımını bizdən əsirgəmə. Bizim intiqamımızı onlardan aldığını bizlərə göstər və bizləri bununla məsud et.

➤Allahım! Bu gün özümüzü, ailəmizi, mal-mülkümüzü və övladımızı Sənə əmanət edirik.

➤Allahım! İmanımızı qoruyaraq bizləri də qoru. Onu bizim üzərimizdə mühafizə eylə.

➤Allahım! Bizi rəhmətinə daxil eylə. Lütfünü bizdən əsirgəmə. Biz Səni istəyənlərdənik.

➤Allahım! Yolçuluğun məşəqqətindən, üzücü mənzərədən, ailə və mal-mülkdəki bəlalardan Sənə sığınırıq. Ey bizə şah damarımızdan daha yaxın olan, ey dilədiyini edən və qulu ilə qəlbi arasına girən Allah! Bizə cəfa-əzab edənlərlə aramıza güc və qüdrətinlə gir. Ey hə şeyin ehtiyacını təmin edən və heç bir şeyə möhtac olmayan Allah! Dünya və axirət işlərində bizimlə əlaqəli şeylərdə bizə yardım et. Ey mərhəmətlilərin ən mərhəmətlisi!

➢Allahım! Endirdiyin xeyirdən, lütf etdiyin ehsanından, paylaşdırdığın xeyirdən, yaydığın ruzi-bərəkətdən, əfv etdiyin günahdan və ya üstünü örtdüyün yanlışdan bizim nəsibimizi artır.

➢Ey Rəbbim! Ey alın yazımı əlində tutan! Ey sıxıntımı və çarəsizliyimi bilən! Ey kasıblığımdan və ehtiyacımdan xəbəri olan!

➢Ey Rəbbim! Sənin haqqınla, qüdsiyyətinlə, sifətlərinin və isimlərinin ən böyüyü ilə Səndən gecə-gündüz vaxtlarımızı Sənin zikrinlə keçirməmizi, davamlı olaraq Sənə xidmət etməmizi və əməllərimizi qəbul etməni diləyirik. Ey bizim dayağımız və əhvalımızı şikayət etdiyimiz Allahımız! Sənə xidmət yolunda orqanlarımıza güc qüvvət ver. Könlümüzün bu yolda qərarlılığını dəstəklə. Kamil iman sahibləri Səndən qorxduğu kimi, qorxuncaya və mö-

münlərlə birlikdə Sənin hüzuruna toplanıncaya qədər Səndən həqiqi mənada qorxmağımızı, Sənin yolunda davamlı xidmət etməmizi bizlərə nəsib eylə.

➢Allahım! Kim bizə bir pislik etmək istərsə, onu özünə geri qaytar. Kim bizə bir hiylə qurarsa, onu boşa çıxart. Bizi Sənin mərtəbəndə ən gözəl nəsibini alan, Sənə ən yaxın olan və Sənin yanında özəl bir yeri olan qullarından eylə. Buna ancaq Sənin lütfünlə çatmaq olar. Bizə cömərdliyinlə bol-bol ver. Ucalığınla bizə şəfqət göstər. Rəhmətinlə bizi mühafizə eylə. Dilimizə daimi Səni zikr etməyi nəsib eylə. Günahlarımızı işlənməmiş qəbul eylə. Xətalarımızı bağışla. Çünki Sən qullarına Sənə dua etmələrini əmr etdin və dualarımı qəbul edəcəyini zəmanət verdin.

➢Üzümü Sənə çevirdim ey Rəbbim! Əllərimizi Sənə uzatdıq.

Rəhmətinlə dualarımızı qəbul eylə. Bizi xeyirli olan arzularımıza çatdır. Ümidimizi qırma. Düşmənlərimizin şərindən bizləri mühafizə eylə, ey duaları eşidən! Ey nemətləri bolca verən. Ey fəlakətlərdən qoruyan! Ey qaranlıqlardakı yalnızların nuru! Ey mərhəmətlilərin ən mərhəmətlisi!

➢Allahım! Sıxıntılarda əlimizdən tut. Bizə həqiqətin yollarını göstər. Sevdiyin şeylərdə bizləri müvəffəq et. Bizi xətalardan qoru. Ehsanını bizdən geri alma. Pislik məqamlarından bizləri qoru. Həsədçilərin hiylə-tələsindən, müxaliflərin istehzaları və onların bizimlə uğraşmalarından bizləri mühafizə eylə. Digər qənaətlərimizdə bizə lütfünlə yardım et. Hər yönümdən bizləri qoru, ey mərhəmətlilərin ən mərhəmətlisi.

➢Allahım! Bizi dəstəklə, bizə yardımcı ol. Bizə yazığın gəlsin və mərhəmət et, ey istənənlərin ən

xeyirlisi! Qüvvətimin zəifliyini və çarəsizliyimi Sənə şikayət edirəm, ey mərhəmətlilərin ən mərhəmətlisi. Bizim üzərimizdəki qüdrətinlə, bizi bir an belə öz nəfsimizlə baş-başa buraxma. Ey Hayy və Qayyum! Sənin rəhmətinlə yardım istəyirik. (3 dəfə təkrar edilir)

➤Allahım! İzzətinlə Səndən istəyirik, bizə doğru yol göstər. Bizə ancaq Sən mərhəmət edərsən. Sənin qüvvətinlə və öz zəifliyimlə, Sənin mənə möhtac olmaman və amma mənim Sənə aciz möhtaclığımla Səndən istəyirəm. Bu yalançı və günahkar üzüm Sənin hüzurundadır. Sənin məndən başqa çox qulun var, mənim isə Səndən başqa böyüyüm yoxdur. Mənim Səndən başqa sığınacağım və qurtarıcım yoxdur. Sənə bir yoxsulun istəməsi ilə yalvarıram, boynu bükük bir itaətkarın yalvarışı ilə istəyirəm.

Qorxu içindəki birinin dua etdiyi kimi, Sənə boyun əyən, Sənin üçün burnu sürtülən, Sənin üçün gözyaşı tökən və Sənin üçün qəlbi titrəyən birinin istəməsi kimi dua edirik.

➢Allahım! Həyatdan zövq ala bilməyimiz üçün bizə sağlıq və afiyət libasını geyindir. Günahların bizə zərər verməməsi üçün həyatımız boyunca və ömrümüzün son anında da bizləri bağışla. Rəhmətinlə bizləri Cənnətə çatıncaya qədər, önümüzdəki hər güc əngəldən bizləri qoru, ey mərhəmətlilərin ən mərhəmətlisi!

➢Allahım! Dünyadan məni onun fitnəsindən qoruyacaq, dünya xalqına məni möhtac etməyəcək və məni dünyadan daha xeyirlisinə çatdıracaq qədər nəsib ver. Şübhəsiz, güc və qüvvət ancaq Səndədir.

➢Allahım! Bizə ruzi olaraq verdiklərinlə bizləri xoşnud et. Ruzimizi

bərəkətləndir və itirdiklərimiz hər bir şeyin yerinə daha da xeyirlisini ver.

Yaratdıqlarının sayısınca, Özün razı oluncaya qədər Ərşinin ağırlığınca və kəlmələrinin çoxluğunca şükür/tərif edərək Allahı bütün nöqsanlardan tənzih edirik.

Allahı göydəki yaratdıqlarının sayısınca, yerdəki yaradılmışların sayısınca tənzih edirəm. (Sübhanəllah deyirəm). İkisi arasındakıların sayısınca tənzih edirəm. Yaratdıqlarının sayısınca tənzih edirəm. Bu zikr etdiklərim sayısınca Allahu əkbər deyirəm. Bunlar qədər Əlhamdulilləh deyirəm. Bunlar qədər "lâ havlə və lâ quvvətə illâ billâh" deyirəm.

Allahı yaratdıqları sayısınca tənzih edirəm. Yaratdığı şeylər dolusunca Allahı tənzih edirəm. Göydəki və yerdəkilər sayısınca Allahı tənzih edirəm. Kitabında saydığı şeylər sayısınca Allahı tənzih edirəm. Hər şey

sayısınca Allahı tənzih edirəm. Allaha bunlar qədər də şükür/tərif edirəm.

➢Allahım! Səndən Cənnəti, onun nemətlərini və ipəyini istəyirəm. Cəhənnəmdən, onun zənginlərindən və halqalarından Sənə sığınıram.

➢Allahım! Sən mənim sözümü eşidir, yerimi görür, gizlimi və açığımı bilirsən. Mənim durumumdan heç bir şey Sənə gizli deyildir. Mən yoxsul və fəqirəm, Səndən yardım istəyir və Sənə sığınıram. Günahımı qəbul edir və Sənə etiraf edirəm. Bir yoxsulun istədiyi kimi istəyir və boynu bükük bir günahkarın yalvarışı kimi yalvarıram. Qorxu içindəki birinin dua etdiyi kimi, Sənə boynunu bükən, Sənin üçün əyilən və burnu sürtülən kimsənin dua etdiyi kimi dua edirik.

➢Allahım! Sən: "Mənə dua edin, duanızı qəbul edim", – buyurdun. Sənin sözün haqdır.

➢Allahım! Budur bizim duamız, qəbul etmək Sənə aiddir. Bu bir səy və qətiyyətdir, təvəkkül Sənədir. Güc və qüvvət ancaq Səndəndir.

➢Allahım! İbrahim aleyhissəlama və İbrahim aleyhissəlamın ailəsinə salat etdiyin kimi, Muhamməd Mustafa salləllahu aleyhi və səlləmə və onun ailəsinə də salat et. Şübhəsiz, Sən çox həmd edilən şan və şərəf sahibisən. İbrahim aleyhissəlamı və onun ailəsini mübarək etdiyin kimi Muhamməd Mustafa salləllahu aleyhi və səlləmi və onun ailəsini də mübarək et. Şübhəsiz, Sən çox şükür\ tərif edilən, şan və şərəf sahibisən.

➢Uca Rəbbim! Sən bizi, ailəmizi, sevdiklərimizi, bizi sevənləri, bütün müsəlmanları, mömünləri, gəlib-keçmiş (ölmüş) və gələcək olacaq (doğulacaq) bütün müsəlmanları və bu kitabı yazan, ərsəyə gətirən və oxuyan hər kəsi bağışla, qəbir

əzabından qoru, Firdövs, Ədn, Nəim, Rəyyan cənnətlərini nəsib et, Cəhənnəm atəşindən mühafizə et, Muhamməd Mustafa salləllahu aleyhi və səlləmə qonşu et, Uca Camalını görməyi nəsib et. Amin

# 3-CÜ HİSSƏ

# SƏHƏR-AXŞAM DUA VƏ ZİKRLƏRİ

## Səhər-axşam oxunan dua və zikrlər

➢ "Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun, (ölüb dirildikdən sonra isə) qayıdış Onadır" (səhər yuxudan oyanarkən).

➢ "Bədənimə salamatlıq verən, ruhumu mənə qaytaran və mənə Özünü zikr etməyə izin verən Allaha həmd olsun!" (səhər yuxudan oyanarkən).

➢ "Bir olan Allaha həmd olsun! Özündən sonra Peyğəmbər olmayan kimsəyə (Muhamməd aleyhissəlama) salavat və salam olsun!"

➢ Mərhəmətli, rəhmli Allahın adı ilə! "Allah! Ondan başqa [ibadətə layiq olan] ilah yoxdur, [əbədi] yaşayandır, Qayyumdur [kainatı yaradan və onu idarə edəndir, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyandır]. Onu nə mürgü

tutar, nə də yuxu. Göylərdə və yerdə nə varsa, Onundur. Onun izni olmadan Onun yanında kim şəfaət edə bilər? O onların [yaranmışların] önlərində və arxalarında olanı [nə olub, nə olur və nə olacağını] bilir. Onlar Onun elmindən Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, ucadır, böyükdür!" /Ayətül-Kursi/ (Bəqərə surəsi, ayə 255).

➢ Mərhəmətli, rəhmli Allahın adı ilə! "O Allah təkdir! Allah [heç kəsə, heç nəyə] möhtac deyildir [əksinə, hər bir məxluq Ona möhtacdır]. O nə doğub, nə də doğulubdur. Və Onun heç bir tayı-bərabəri də yoxdur!" /İxlas surəsi/ (3 dəfə təkrar edilir)

➢ Mərhəmətli, rəhmli Allahın adı ilə! "De: "Sığınıram sübhün Rəbbinə! Yaratdıqlarının şərindən, çökməkdə

olan zülmətin [gecənin] şərindən, düyünlərə yüngülvari tüpürən [cadugər] qadınların şərindən və paxıllıq edərkən paxılın şərindən!" (Fələq surəsi).

➢ Mərhəmətli, rəhmli Allahın adı ilə! "De: "Sığınıram insanların Rəbbinə, insanların hökmdarına, insanların ilahına! Vəsvəsə verənin, [Allahın adı çəkiləndə isə] geri çəkilənin [şeytanın] şərindən. Hansı ki, insanların kökslərinə vəsvəsə salır, cinlərdən də [olur], insanlardan da!" /Nas surəsi/ (3 dəfə təkrar edilir).

➢ "Səhərə (axşama) çıxdıq, hökm də Allahın olaraq səhərə (axşama) çıxdı. Allaha həmd olsun! Allahdan başqa ilah yoxdur, O, təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə qadirdir!

➢Ey Rəbbim! Səndən bu günün xeyrini və bundan sonrakı xeyri diləyirəm. Bu günün şərindən və

bundan sonrakı şərdən Sənə sığınıram.

➢Ey Rəbbim! Tənbəllikdən və pis qocalıqdan Sənə sığınıram.

➢Ey Rəbbim! Cəhənnəmdəki və qəbirdəki əzabdan Sənə sığınıram!"

➢ "Allahım! Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə axşama yetişdik, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Qayıdış Sənədir!"

➢ "Allahım! Sən mənim Rəbbimsən. Səndən başqa ilah yoxdur. Məni Sən yaratdın və mən Sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Etdiklərimin şərindən Sənə sığınıram. Mənə verdiyin neməti etiraf edirəm və günahımı boynuma alıram. Məni bağışla! Şübhəsiz, ki, günahları yalnız Sən bağışlayırsan!"

➢ "Allahım! Sənin Özündən başqa ilah olmayan, tək və şəriksiz

Allah olduğuna, Muhamməd aleyhissəlamın Sənin qulun və rəsulun olduğuna Səni, Ərşini daşıyanları, mələklərini və bütün yaratdıqlarını şahid tutaraq səhərə çıxdım!” (4 dəfə təkrar edilir).

➢ “Allahım! Bu səhər [axşam] mənə və ya yaratdıqlarından hər hansı birinə verdiyin nemət Səndəndir. Sən təksən, şərikin yoxdur. Həmd Sənədir, şükür Sənədir!”

➢ “Allahım! Bədənimi salamat et! Allahım! Qulağımı salamat et!

➢Allahım! Gözümü salamat et! Səndən başqa ilah yoxdur.

➢Allahım! Küfrdən və yoxsulluqdan Sənə sığınıram. Qəbir əzabından Sənə sığınıram. Səndən başqa ilah yoxdur!” (3 dəfə təkrar edilir).

➢ “Allahım! Dünyada və axirətdə Səndən əfv və salamatlıq diləyirəm! Allahım! Dinim, dünyam, ailəm və

malım üçün Səndən əfv və salamatlıq diləyirəm! Allahım! Eyiblərimi ört və qorxularımdan məni xatircəm et! Allahım! Məni önümdən, arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru. Ayağımın altının qazılmasından Sənin əzəmətinə sığınıram!"

➢ "Göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı bilən Allahım! Hər şeyin Rəbbi və hökmdarı! Şəhadət edirəm ki, Səndən başqa ilah yoxdur. Nəfsimin şərindən, şeytanın şərindən və şirkindən, özümə pislik etməkdən, yaxud onu bir müsəlmana yetirməkdən Sənə sığınıram!"

➢ "Ey [əbədi] diri olan, ey Qayyum [kainatı yaradan və onu idarə edən, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyan]! Mərhəmətinlə kömək diləyirəm. Mənim bütün işlərimi yoluna qoy! Məni bir göz qırpımı belə başlı-başına buraxma!"

➤ "Səhərə (axşama) çıxdıq, hökm də aləmlərin Rəbbi Allahın olaraq səhərə (axşama) çıxdı. Allahım! Səndən bu günün xeyrini – qələbəsini, zəfərini, nurunu, bərəkətini və hidayətini diləyirəm. Ondakı şərdən və ondan sonrakı şərdən Sənə sığınıram!"

➤ "İslam fitrətində, ixlas kəlməsində, Peyğəmbərimiz Muhamməd salləllahu aleyhi və səlləmin dinində, hənif [ixlasla Allaha ibadət edən], müsəlman olan və müşriklərdən olma-yan atamız İbrahim aleyhissəlamın millətində olaraq səhərə (axşama) çıxdıq!"

➤ "Allahın Rəbb, İslamın din və Muhamməd Mustafanın (salləllahu aleyhi və səlləm) peyğəmbər olduğundan razıyam!" (3 dəfə).

**Ərəbcə oxunuşu:** Radiytu billâhi rabbən və bil-islâmi dînən və bi Muhammədin (səlləllahu aleyhi və səlləm) nəbiyyən.

- “Allah pak və müqəddəsdir! Allaha həmd olsun!” (100 dəfə).

**Ərəbcə oxunuşu:** Subhanəllahi və bihamdihi.

- “Allahdan başqa ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə qadirdir!” (100 dəfə).

**Ərəbcə oxunuşu:** Lâ ilâhə illəllâh vəhdəhû lâ şərîkə ləh, ləhul-mulku və ləhul-hamdu və huvə alâ kulli şəyin qadîr.

- “Allah mənə yetər! Ondan başqa ilah yoxdur. Ona təvəkkül etdim. O, böyük Ərşin Rəbbidir!” (7 dəfə).

**Ərəbcə oxunuşu:** [Hasbiyəllâhu lâ ilâhə illə huvə aleyhi təvəkkəltu və huvə rabbul-arşil-azîm].

➤ “Yaratdıqlarının sayı, Özündən razı olduğu, Ərşinin ağırlığı və kəlmələrinin çoxluğu qədər həmd edərək Allaha təriflər deyirik!” (səhər 3 dəfə).

**Ərəbcə oxunuşu:** Subhânəllâhi və bihamdihi, adədə xalqihi və rıda nəfsihi və zinətə arşihi və midadə kəlimətih.

➤ “Allahım! Səndən faydalı elm, təmiz ruzi və məqbul əməl diləyirəm!” (hər səhər).

**Ərəbcə oxunuşu:** Allâhummə, innî əs’əlukə ilmən nafiən və rizqan tayyibən və amələn mutəqabbələn.

➤ “Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm!” (gün ərzində 100 dəfə).

**Ərəbcə oxunuşu:** Əstəğfirullâhə və ətubu ileyhi.

➢ “Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram!” (axşam 3 dəfə).

**Ərəbcə oxunuşu:** Əûzu bikəliməttillâhit-tâmməti min şərri mâ xaləq.

➢ “Allahım! Peyğəmbərimiz Muhamməd aleyhissəlama salavat və salam yetir!” (100 dəfə).

**Ərəbcə oxunuşu:** Allâhummə salli və səllim alâ nəbiyyinâ Muhamməd.

➢ Allahın kəlmələri sayısınca lâ ilâhə illallah. Yaratdıqları sayısınca lâ ilâhə illallah, Ərş ağırlığınca lâ ilâhə illallah. Səmalar dolusu lâ ilâhə illallah. Bunlarla bərabər, bunların mislincə lâ ilâhə illallah. Bunlarla bərabər, bunların mislincə Allahu əkbər. Bunlarla bərabər, bunların mislincə əlhamdulilləh”. Peyğəmbər Əfəndimiz (s.a.v): “Kim bu zikri oxuyarsa, nə bir mələk savabını

yazmağa taqət gətirə bilər, nə də bir başqası", - buyurmuşdur.

➢ "Ey Rəbbim! Sənin adınla böyrümü yerə qoydum, Sənin sayəndə də qaldırıram. Ruhumu tutub saxlasan, ona rəhm et! Onu buraxsan, əməlisaleh qullarını qoruduğun kimi onu da qoru!" (Gecə yatağa girərkən).

➢ "Allahım! Canımı Sən yaratdın, Sən də onu alacaqsan. Onu öldürmək də, diriltmək də Sənə məxsusdur. Onu diriltsən, qoru, öldürsən, bağışla! Allahım! Səndən salamatlıq diləyirəm!" (Gecə yatağa girərkən).

➢ "Allahım! Bəndələrini dirildəcəyin gün məni Öz əzabından qoru!" (Gecə yatağa girərkən).

➢ "Allahım! Sənin adınla ölür və dirilirəm!" (Gecə yatağa girərkən).

➢ "Allahım! Sənə ümid edərək və Səndən qorxaraq canımı Sənə təslim etdim. İşimi Sənə həvalə etdim,

üzümü Sənə çevirdim, kürəyimi Sənə etibar etdim. Sığınacaq və Səndən (əzabından) xilas olmaq üçün dönüş yeri yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba və göndərdiyin Peyğəmbərə iman gətirdim!” (Gecə yatağa girərkən).

# 4-CÜ HİSSƏ

# GÜNDƏLİK ZİKRLƏR

Gündəlik olaraq aşağıdakı dua və zikrlərin oxunması fəzilətlidir.

✓ **Sübhânəllâh.** (100 dəfə)

Mənası: Uca Allah nöqsanlardan, qüsurlardan uzaqdır, pak və müqəddəsdir.

• Peyğəmbər Əfəndimiz (s.a.v): "Kim bu zikri edərsə, ona 1000 savab yazılar və ya 1000 günahı bağışlanar", - buyurmuşdur. (Müslim, Zikir 79)

✓ **Əlhamdulillâh.** (100 dəfə)

Mənası: Həmd və şükür Allaha məxsusdur.

•Peyğəmbər Əfəfndimiz (s.a.v) belə buyurmuşdur: "Bir qul bir dəfə "Əlhamdulilləh" dediyi zaman yer ilə göy arasını savabla doldurmuş olur. İkinci dəfə: "Əlhamdulilləh" dediyi zaman yerin yeddi qat göylərin üstünə qədər olan bu arasını

savabla doldurmuş olur. Üçüncü dəfə "Əlhamdulilləh" dediyi zaman Allahu Təala bu quluna: "Ey qulum, al", - buyurur. Yəni Uca Rəbbimiz: "Ey qulum, istədiyini dilə, diləyin veriləcəkdir, muradını istə, muradın yerinə yetiriləcək. Arzu və istəyin gerçəkləşəcək. Sən dərhal istə..." - buyurmuş demək olur.

✓ **Allahu Əkbər.** (100 dəfə)

Mənası: Allah ən böyükdür və ucadır.

• Səhabəyi-Kiramı dinləyən Peyğəmbər Əfəndimiz (s.a.v) onların könlünü bu müjdəsi ilə aldı: "Mən sizə faydalı bir şey öyrədimmi? Onunla sizi ötüb keçənlərə yetişər, və hətta sizdən sonrakıları da ötüb keçərsiz. Həm heç bir kimsə sizdən daha fəzilətli ola bilməz, əgər ki, sizin etdiyiniz kimi zikr etmiş olmasalar. Belə ki: Hər namazdan sonra 33 dəfə

Sübhanəllah, 33 dəfə Əlhamdulilləh və 33 dəfə Allahu əkbər desəniz, hamısı 99 edər. 100-ə tamamlamaq üçün də, "Lâ ilâhə illallahu vahdəhu lâ şərika ləh, ləhul mulku və ləhul hamdu və huvə alâ kulli şəyin qadîr" desəniz, günahlarınız dənizin köpüyü qədər də olsa, bağışlanar" (Müslim, Məsacid: 146).

✓ **Əstagfirullâhə və ətûbu ileyh.** (100 dəfə)

Mənası: Allahdan məni bağışlamasını istəyir və günahlarıma tövbə edirəm"

✓ **Subhânəllâhi və bihamdihi.** (100 dəfə)

Mənası : Allah pak və müqəddəsdir! Allaha həmd olsun!

Peyğəmbər Əfəndimiz (s.a.v): belə buyurdu: ''Bir kimsə gündə 100 dəfə bu zikri edərsə, onun günahları

dənizdəki köpüklər sayısınca olsa belə, Allah onların hər birini bağışlayar" (Buxari, İbn Macə, Dua, 14).

✓ **Sübhânəllahi vəlhamdulillâhi və lâ ilâhə illallâhu vallâhu əkbər.** (100 dəfə)

Mənası: "Allah bütün nöqsanlıqlardan münəzzəhdir, bütün həmdlər Ona məxsusdur Allahdan başqa ilah yoxdur. Allah ən böyükdür".

•Peyğəmbər Əfəndimiz (s.a.v): "Bu zikri etmək üzərinə Günəşin doğduğu hər şeydən daha qiymətlidir', - buyurmuşdur" (Müslim, Zikr).

✓ **Subhânəllahi və bihamdihi adədə xalqihi və riza nəfsihi və zinətə arşihi və midadə kəlimatihi...** (100 dəfə)

Mənası: Məxluqatı sayısınca, Özünün razı olacağı qədər, Ərşinin ağırlığınca və bitib tükənməyən kəlmələri sayısınca Allahı uluhiyyət məqamına layiq olmayan bütün nöqsan sifətlərdən tənzih edir və Ona həmd edirəm. (Müslim, Zikr, 79)

✓ **Sübhânəllâhi və bihamdihi sübhânəllâhi'l azîm.** (100 dəfə)

Mənası: Təmiz və pak Allahı həmd ilə təsbeh edirəm, böyük Allahı təsbeh edirəm.

• Rəsuli-Əkrəm salləllahu aleyhi və sələm Əfəndimiz buyurmuşdur: "Rəbbini zikr edənlə etməyənin halı diri ilə ölünün halı kimidir". Yəni Rəbbini zikr edən kimsənin (qəlbi) diri, Rəbbini zikr etməyən kimsənin (qəlbi) də ölüdür. (Buxari, Dəavat, 66)

✓ **Lâ ilâhə illallâh.** (100 dəfə)

Mənası: Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur.

• Peyğəmbər Əfəndimiz (s.a.v): "Mən bir söz bilirəm ki, qul onu ölüm gəlincəyə qədər söyləyərsə, ruhu cəsədindən çıxarkən ruhuna bir başqa fərəhlik gəldiyini görər. Və o söz qiyamətdə onun üçün nur, aydınlıq olar. O söz "Allahdan başqa ilah yoxdur" sözüdür. (İbn Hənbəl, I, 37; Ramuzul-əhadis).

• Peyğəmbər Əfəndimiz (s.a.v): "İmanınızı daim yeniləyin", – buyurdu. Səhabəyi-Kiram: "Ya Rəsulallah, imanımızı necə yeniləyək?" – dedi. "Lâ ilâhə illallah" zikri-şərifini çox-çox edin", – buyurdu. (İbn Hənbəl, II, 359).

✓ **Lâ havlə və lâ quvvətə illâ billâh.** (100 dəfə)

Mənası: Güc və qüvvət yalnız Allahın köməyi ilə əldə edilir.

• Peyğəmbər Əfəndimiz (s.a.v) buyurdu: "Lâ havlə və lâ quvvətə illə̂ billə̂h" zikrini çox edin. Çünki o, Cənnətin xəzinəsidir" (Buxari, Dəavat, 50).

✓ **Lâ havlə və lâ quvvətə illâ billə̂hil aliyyil azîm.** (100 dəfə)

Mənası: "Güc və qüvvətə (qüdrətə) ancaq ali, uca və əzəmətli ALLAHIN köməyi ilə nail olmaq olar".

• Peyğəmbər Əfəndimiz (s.a.v): "Ya Hafsa! Çox danışmaqdan uzaq qaç. Söylənən ifadələr zikrullah olmadıqca qəlbi öldürür. Fəqət Allahı çox zikr et. Çünki bu qəlbi dirildir", - buyurdu. (Əli əl-Müttəqî, 1896)

✓**Lâ ilə̂hə illallâhu məlikul haqqul mubîn.** (100 dəfə)

Mənası: Allahdan başqa haqq ilah yoxdur və O, qiyamət gününün haqq olaraq malikidir, sahibidir"

- Kim bu zikri söyləyərsə, kasıbçılıqdan qorunar, qəbrin vəhşətindən (tənhalıq) əmin-amanda qalar, ruzisi artar və o zikrlə Cənnətin qapısı onun üçün döyülər və üzünə açılar".

✓ **Lâ ilâhə illəllâhu vəhdəhû lâ şərîkə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alâ kulli şəyin qadîr, subhanəllâhi, vəlhamdulillâhi və lâ ilâhə illəllâhu vəllahu əkbər və lâ havlə və lâ quvvətə illâ billâhil-aliyyil-azîm, rabbiğfirlî.**

Mənası: Allahdan başqa məbud yoxdur, təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə qadirdir. Allah pak və müqəddəsdir. Həmd Allahadır. Allahdan başqa məbud yoxdur.

Allah ən böyükdür. Qüdrət və güc yalnız Uca və Böyük Allaha aiddir! Ey Rəbbim, məni bağışla!

✓ **Lâ ilâhə illəllâhû vəhdəhu lâ şərîkə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alâ kulli şəyin qadîr.** (100 dəfə)

Mənası: "Allahdan başqa ilah yoxdur, O, təkdir. Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə qadirdir.

• Əbu Hüreyrə (r.a) Əfəndimizin (s.a.v) belə buyurduğunu bildirdi: "Bir kimsə hər gün 100 dəfə bu zikri edərsə, on kölə azad etmiş qədər savab qazanar, ona 100 savab yazılar, 100 günahı bağışlanar. Bu zikr o gün axşama qədər o kimsənin şeytandan qorunmasını təmin edər. Bu zikri ondan daha çox təkrarlayan kimsə xaricində, heç kimsə daha fəzilətli bir iş etməmişdir".

✓ **Lâ ilâhə illâ əntə subhânəkə innî kuntu minə'z-zâlimîn.** (Yunus aleyhissəlamın duası)

Mənası: "…Səndən başqa İlah yoxdur. Sən Sübhansan (hər şeydən münəzzəhsən). Əlbəttə, mən zalımlardan oldum" (Ənbiya surəsi, ayə 87).

•Peyğəmbər Əfəndimiz (s.a.v) buyurdu: "Birinizə dərd və bəla gəlincə, Yunus Peyğəmbərin duasını oxusun! Allahu Təala onu mütləq xilas edər".

✓ **"Hasbunəllâhu və ni'məl vəkîl"** (100 dəfə)

Mənası: "Allahu Təala bizə yetər. O nə gözəl vəkildir".

• Peyğəmbər Əfəndimiz (s.a.v): "Sizdən hər hansı biriniz böyük bir (bədbəxt) hadisə ilə (qəm-kədər, dərd-bəla, düşmənlə qarşılaşma və.s) üzləşdikdə bu zikri oxusun. Cənabı

Allah düşdüyünz bəlanı sizdən uzaqlaşdırar". Zikrin 100-cüsündə isə "Ni'məl Mövlâ və ni'mən nasır" deyə əlavə edərək tamamlayın.

✓ **"Hasbunallâhu və ni'məl vəkîl, ni'məl Mövla və ni'mən nasîr".** (100 dəfə)

Mənası: "Allahu Təala bizə yetər. O nə gözəl vəkildir. Nə gözəl Mövla və nə gözəl yardımcıdır".

• Bu zikri ilk dəfə Hz İbrahim aleyhissəlam oxumuşdur. Beləliklə, Nəmrudun qalatdığı dəhşətli alovun atəşi İbrahim aleyhissəlama Allahın izni ilə "soyuq və salamat" olmuşdur. Beləliklə, alov peyğəmbəri yandırmamış, bunu görənlərin bir çoxu iman etmişdir.

✓ **Allahummə salli alâ seyyidinâ Muhammədin və alâ âli seyyidinâ Muhamməd.** (100 dəfə)

Mənası: Allahım! Əfəndimiz, böyüyümüz Muhamməda (s.a.v) və Muhammədin (s.a.v) ümmətinə rəhmət eylə.

• Uca Allah belə buyurur: "Doğrudan, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla salamlayın" (Əhzab surəsi, ayə 56) .

• Peyğəmbər Əfəndimiz (s.a.v) buyurdu: "Mənə çoxlu salatu salam gətirin. Çünki o, qəbirdə də, sıratda da, Cənnətdə də bir nurdur" (Deyləmi).

• "Kim mənə bir dəfə salat gətirərsə, Allah (c.c) o kimsəyə on dəfə salat edər, on xətası silinər və on dərəcə yüksəldilər". (Nəsai, Səhv, 55)

✓ **Hasbiyəllâhu lə̂ iləhə illə̂ huvə aleyhi təvəkkəltu və huvə rabbul-arşil-azîm.** (7 dəfə)

Mənası: "Allah mənə yetər! Ondan başqa ilah yoxdur. Ona təvəkkül etdim. O, böyük Ərşin Rəbbidir!"

✓ **Allâhummə, innî əs'əlukə ilmən nâfiən və rizqan tayyibən və amələn mutəqabbələn.**

Mənası: "Allahım! Səndən faydalı elm, təmiz ruzi və məqbul əməl diləyirəm!"

✓ **Əûzu bikəlimətillə̂hit-tə̂mməti min şərri mə̂ xaləq.**

Mənası: "Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram!".

✓ **"Allâhummə salli alə̂ seyyidinə̂ Muhammədin və alə̂ ə̂li seyyidinə̂ Muhammədin salə̂tən tuncînə̂**

**bihə̂ min cəmî'ıl-əhvə̂li vəl-ə̂fə̂t. Və təqdî lənə̂ bihə̂ cəmîal-hâcə̂t. Və tutahhirunə̂ bihə̂ min cəmîıs-səyyiə̂t. Və tərfəunə̂ bihə̂ ındəkə aləd-dərəcə̂t. Və tubəlliğunə̂ bihə̂ əqsal-ğâyə̂t. Min cəmîıl-xayrâti fil-həyə̂ti və ba'dəl-məmə̂t. İnnəkə alə̂ kulli şəyin qadîr".** /Salatı-Münciyə duası (Salatən Tüncinə)/

Mənası: Allahım! Əfəndimiz Muhamməddə və Əfəndimiz Muhamməddin alinə rəhmət eylə. Elə bir rəhmət ki, onunla bizi dünya və axirətdə bütün qorxu və bəlalardan qurtarar, bütün ehtiyaclarımızı verər, bütün günahlarımızdan təmizlər, qatındakı dərəcələrin ən ucasına yüksəldər, həyatda və ölümdən sonra bütün xeyirlərin sonuna qovuşdurarsan! Şübhəsiz, Sən hər şeyə qadirsən!

**✓ Bismillâhirrahmânirrahîm. Âmənərrasûlu bimâ unzilə ileyhi min rabbihi vəl muminûn, kullun âmənə billâhi və məlâikətihî və kutubihî və rusulihî lâ nufərriqu bəynə əhadin min rusulih və qâlû səmi'nâ və ata'nâ ğufrânəkə rabbənâ və-ileykəl məsîr. Lâ yukəllifullâhu nəfsən illâ vus'ahâ ləhâ mâ kəsəbət və aleyhâ məktəsəbət, rabbənâ lâ tuâxiznâ in nəsînâ əv əxtanâ rabbənâ vəlâ tahmil aleynâ isran kəmâ haməltəhu aləl-ləzînə min qablinâ. Rabbənâ vəlâ tuhammilnâ mâ lâ tâqətə lənâ bih va'fu annâ vağfir lənâ vərhamnə əntə məvlânâ fənsurnâ aləl qavmil kâfirîn.** (Amənnər rəsulu. Bəqərə surəsi, ayə 285-286)

Mənası: Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də iman gətirdilər. Hamısı Allaha, Onun mələklərinə,

kitablarına və nəbilərinə iman gətirdilər. Onlar dedilər: "Biz Onun nəbiləri arasında fərq qoymuruq!" Onlar dedilər: "Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!" Allah hər kəsi yalnız onun gücü çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı xeyir yalnız onun özünə, qazandığı şər də yalnız öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər. Hər kəsin qazandığı xeyir yalnız onun özünə, qazandığı şər də yalnız öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar

etmə! et, bizi bağışla və bizə rəhm et! Sən bizim himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!"

✓ **Əsəlullahəl cənnətə və əuzu billâhi minən nâr.** (7 dəfə)

✓ **Əlhamdu lillâhi alâ kulli nimətin kânət əv hiyə kâinah.** (7 dəfə)

✓ **Hasbiyallâhu rabbi, Allahu lâ ilâhə illâ hu, aleyhi təvəkkəltu və huvə rabbil arşil azîm.** (7 dəfə)

✓ **Lâ ilâhə illallahu haqqan haqqa, lâ ilâhə illallahu imânən və təsdiqa, lâ ilâhə illallâhu ubûdiyyətən və riqqa.** (15 dəfə)

✓ **Allâhumməğfir lil muminînə vəl muminât vəl muslimînə vəl muslimât.** (25 dəfə)

✓ **Yâ Hayyu, yâ Qayyumu, yâ Zəl Cəlâli vəl-İkrâm, ALLAHUMMƏ inni əs'əlukə ən tuhyiyâ qalbi binûri**

**mərifətikə əbədən, Ya ALLAH, Ya ALLAH, Ya ALLAH Cəllə Cəlalûh”**

Allahu Təala buyurur: “Ey Adəmoğlu, fəcrdən və əsrdan sonra bir saat Məni zikr et, bunların arasına Mən kəfiləm” (Suyuti, “əl-Camius-Sağîr”, hədisi-şərif №: 6055).

# 5-Cİ HİSSƏ

# DUALAR

# Kenzül Arş Duası

Allahdan başqa ilah yoxdur, Hökmdar, Haqq, Zahir. Allahdan başqa tanrı yoxdur, Hakim, Ədalətli, Möhkəm. O, bizim Rəbbimiz və atalarımızın Rəbbidir. Səndən başqa ilah yoxdur. Sən paksan. Mən zalımlardan olmuşam. Allahdan başqa tanrı yoxdur. Onun şəriki yoxdur. Hökmranlıq Ona məxsusdur. Bütün həmd Ona məxsusdur. O, dirildir və öldürür. O, Diri və Əbədidir. Yaxşılıq Onun əlindədir və qayıdış Onadır. O, hər şeyə qadirdir. Biz Ondan kömək diləyirik. Yaxşılıq etmək və pislikdən çəkinmək üçün güc və qüdrət yalnız Uca və Hər Şeyi Bilən Allahdan gəlir.

Nemətlərinə görə minnətdarlıq əlaməti olaraq Ondan başqa tanrı yoxdur. Rəbbliyini qəbul etmək üçün Ondan başqa tanrı yoxdur. Allah Öz əzəmətini ucaltmaq üçün bütün nöqsanlardan uzaqdır.

Ey Allahım! Ey Rəbbim! Cəbrayılın qanadında yazılmış adının şərəfinə, Mikayılın qanadında yazılmış adının şərəfinə, İsrafilin alnında yazılmış adının şərəfinə, Əzrayılın ovcunda yazılmış adının şərəfinə, verdiyin Münkər və Nəkir adlarının şərəfinə, sahib olduğun qullarının sirlərinin şərəfinə, İslamı kamilləşdirdiyin adının şərəfinə, Adəmin Cənnətdən qovulduğu zaman Səndən öyrənib Sənə dua etdiyi və qəbul etdiyin adın şərəfinə.

Şetin Səni çağırdığın adla, Ərşi daşıyan mələkləri gücləndirdiyin adla, Tövratda, İncildə, Zəburda və Quranda yazılmış adla, qullarına əbədi olaraq mərhəmətini göstərdiyin adla, bütün sözlərinin adı ilə.

İbrahim oda atıldığı və od sərin və təhlükəsiz olduğu zaman Sənə dua etdiyi adla; İsmayıl qurban kəsiləcək ikən Sənə dua etdiyi və Sən onu xilas etdiyin adla; İshaqın Sənə dua etdiyi və Sənin ehti-

yaclarını ödədiyin adla; Hudun Sənə dua etdiyi və Sənin onun gözlərini və övladlarını bərpa etdiyin adla;

Davudun Səni çağırdığın və onu yer üzündə xəlifən, əllərində dəmiri yumşaltdığın adla; Süleymanın Sənə dua etdiyi və onu yer üzündə padşah etdiyin adla; Əyyubun Səni çağırdığı və onu çətinliklərindən qurtardığın adla.

Məryəm oğlu İsanın sənə dua etdiyi və ölüləri diriltdiyin adı ilə, Musanın sənə dua etdiyi və Tur dağında ona cavab verdiyin adı ilə, Fironun arvadı Asiyanın sənə dua etdiyi və Cənnətdə ona ruzi verdiyin adı ilə, İsrail oğullarının sənə dua etdiyi və dənizdən keçdiyin adı ilə.

«Xızırın səni çağırdığı və onu suyun üzərində gəzdirdiyin adla, Məhəmmədin (s.a.s.) mağarada səni çağırdığı və onu xilas etdiyin adla, bunu səndən istəyirəm. Həqiqətən də Sən Səxavətlisən, Sən Böyüksən. Allah bizə kifayətdir. O, işləri

ən yaxşı idarə edəndir. Yaxşılıq etmək və pislikdən çəkindirmək üçün güc və qüdrət yalnız Uca və Böyük Allahdandır. Allah Peyğəmbərimiz Məhəmmədi, onun ailəsini və səhabələrini dəstəkləsin və qorusun! AMİN»

**Kənzül Ərş Duası ilə bağlı:** Hər kim Fatihə, İxlas, Kafirun, Fələq və Nas surələrini üç dəfə oxuyar və sonra bu duanı oxuyarsa, Allah onu qarşılaşdığı bütün varlıqların şərindən qoruyar, hər cür xəstəlikdən və hər bir zalımın şərindən qoruyar və bütün arzularını yerinə yetirər. Kim onu oxuyarkən yazıb özü ilə apararsa və ya yatarkən başının altına qoyarsa, Allah Təala onun malından oğurlananları və evindən qaçanları geri qaytarar. (Nəvadir-i Kaylubidən)

**Muhammed Peygambərin sas Taif Duası:**

"Allahim zəifliyimi və çarəsizliyimi, insanların nəzərində düşdüyüm alçaldılmış və nifrət olunmuş halımı Sənə təqdim edirəm. Ey mərhəmətlilərin ən mərhəmətlisi! Sən çətinlik və çətinlik içində olanların, zülm altında zəifləmişlərin Rəbbisən. Yalnız Sən mənim Rəbbimsən. Məni kimin əlinə buraxırsan? Məni zalım düşmənin əlinə düşməyə qoymazsan və onların mənim üzərimdə hakimiyyət qazanmasına icazə verməzsən. Ey Rəbbim! Əgər mənə gələn bu bəlalar və əzablar Sənin mənə qarşı qəzəb və qəzəbindən deyilsə, onda bu əzaba heç bir əhəmiyyət verməz və hamısına dözərəm. Buna baxmayaraq, Sənin sığınacağına çox ehtiyacım var. Həm bu dünyada, həm də axirətdə qaranlığı nura çevirən nuruna sığınıram. Ey Rəbbim! Səndən bağışlanma diləyirəm və Sən razı qalana qədər tövbə

edib bağışlanma diləyirəm. Bilirəm ki, güc və qüdrət yalnız Sənə məxsusdur.”

## Yaqub Peyğəmbərin Duası

“Ey özündən başqasının; özünün necə olduğunu bilməyən Allah`ım ! Ey qüdrətinə kimsənin çatabilmədiyi Rabbim! Mənim bu sıxıntımı məndən uzaqlaşdır.” duasını talim etti.

(Cəbrail (əs) Həzrət Yaqubun (əs) Yusifə olan həsrətlə yandığını görəndə oğluna qovuşmaq üçün öyrətdiyi duadir)

## İsmi Azam Duası

Allahdan başqa ilah yoxdur. Ancaq Cəlil və Cəbbər olan Odur. Ondan başqa ilah yoxdur. O, bütün qullarının hallarından xəbərdar olan və qüsurlarını örtəndir.

Allahdan başqa ilah yoxdur. Gecə ilə gündüzü yaradan Odur.

Allahdan başqa ilah yoxdur. Təkdir, şəriki yoxdur; təkdir və birdir. Biz Ona şükür edirik.

Allahdan başqa ilah yoxdur. Ancaq O vardır, təkdir, ortağı yoxdur. Tək bir Allahdır. Biz Ona ibadət edirik.

Allahdan başqa ilah yoxdur. Ancaq O vardır, təkdir və ortağı yoxdur. Tək bir İlahdır. Biz Ona şükür edirik.

Allahdan başqa ilah yoxdur. Allah təkdir, ortağı yoxdur. Məhəmməd (s.ə.s.) Onun Rəsuludur. Həyy və Qəyyum Odur.

Allahın rəhməti məxluqatın ən xeyirlisi olan Məhəmmədin (s.ə.s.), onun ailəsinin, səhabələrinin və hamısının üzərinə olsun.

Şəhadət edirəm ki, Sən həm Rəbbimiz, həm də Xaliqimizsən.

Allahım, məni bağışla. Ey Allah, ey Allah, ey Allah! Rəhmətinlə məni əfv et. Çünki Sən mərhəmət edənlərin ən mərhəmətlisisən.

## İsmi azam zikri

«Allâhu-Hû , Melik'ün, Semî'un,Kâdir'un Kerîm'ün, Halîm'ün, Latif'ûn, Alîm'ün, Muîn'ûn, Sâdik'un»

İsmi-Azam Allahın ən uca adıdır. Bu adla edilən duaların, diləklərin qəbul olunması, şəfa tapmaq və dərd-bəladan qurtulmaq ehtimalı çox yüksəkdir.

## Veysel karani duasi

"Ey uca Rəbbim! Mən Sənin aciz bir qulunam. Sənə layiq şəkildə feyzli sözlərlə dua etməyi, yalvarmağı bacarmıram. Sənə sevimli qulun Veysel Qarani'nin duası və münacatı ilə yalvarıram. Allahım! Ona açdığın dərgahın lütf qapısını bizlərə də aç. Ya Rəbbim! Sevimli qulunun bu gözəl duası ilə, onun dediyi kimi, mən aciz qulun da Sənə dua edir və Səndən diləyirəm."

Ya İlahi! Rəbbim Sənsən! Çünki mən

Sənin qulunam. Nəfsimi tərbiyə etməkdə acizəm. Demək, məni tərbiyə edən Sənsən!

Həm Sənsən Xaliq! Çünki mən məxluqam; yaradılıram…

Həm Rəzzaq Sənsən! Çünki mən ruziyə möhtacam; əlim çatmır. Demək, məni yaradan və ruzimi verən Sənsən…

Həm Sənsən Malik! Çünki mən məmlukam. Məndə məndən başqası hökm edir. Demək, Malikimiz Sənsən…

Həm Sən Əzizsən! İzzət və əzəmət sahibisən! Mən öz zillətimə baxıram; üstümdə bir izzət təcəllisi var. Demək, biz Sənin izzətinin aynasıyıq…

Həm Sənsən Qəniyyi-Mütləq! Çünki mən fəqirəm. Fəqirliyimin çatmadığı bir zənginlik mənə verilir. Demək, qəni olan Sənsən, verən Sənsən…

Həm Sən Həyyi-Baqisən! Çünki mən ölürəm. Ölümüm və dirilməyimdə daim bir əbədi həyat verənin təcəllisini görürəm…

Həm Sən Baqisən! Çünki mən faniliyə və yoxluğa gedirəm; amma bunda Sənin davam və bəqanı görürəm…

Həm Sən Kərimsən, ummadığımız yerdən ehsan edəndirsən. Çünki mən nankoram və xəsisəm; bu qədər nemətin şükrünü yerinə yetirə bilmirəm, Sənin razılıq dairəndə sərf etmirəm…

Həm Sən Mühinsən (Muhsin), bütün yaxşılıqlar və gözəlliklər Səndəndir, Səndən gəlir. Çünki mən pisliklərə və günahlara meylliyəm; günahım və qüsurum çoxdur…

Həm Sən Qafursan, günahları bağışlayansan. Çünki mən günahlardan qurtula bilmirəm. Əgər məğfirətin olmasa, məni kim bağışlayar?!

Həm Sən Əzimsən, əzəmət sahibisən. Çünki mən həqirəm; Sən olmasan, bir heçəm, heç bir şərəf və dəyərim yoxdur…

Həm Sən Qavisən (Qavî), hər şeyə

gücün yetər. Çünki mən zəifəm; Sənin yardımın olmasa heç nəyə gücüm çatmaz…

Həm cavab verən, bəxşiş edən Sənsən! Çünki biz – bütün məxluqat – sözlə və hal dili ilə daim istəyir, yalvarırıq. Arzularımız yerinə yetir, istəklərimiz verilir. Deməк, verən Sənsən…

Həm Sən Əminsən! Çünki mən qorxuram; ancaq Səninlə arxayınlıq tapıram. Qəlblərə hüzur, ağıllara güvən verən Sənsən…

Həm Sən Cövadsan, səxavətlisən. Çünki mən Sənin ehsanına möhtacam; Sən isə bol-bol verənsən, xəzinən tükənməz…

Həm Sən dualara cavab verən Mücibsən. Çünki dua edən və köməyə möhtac olan mənəm. Əgər qəbul etməsən, hansı qapıya gedim?

Həm Sən Şafisən, bütün maddi və mənəvi xəstəliklərə şəfa verənsən. Çünki

mən xəstəyəm; müxtəlif dərd və bəlalara düçar olmuşam…

Elə isə, günahlarımı bağışla, qüsurlarımı əfv et, bütün xəstəliklərimə şəfa ver, ya Allah, ya Kafi, ya Vafi (vəfasını yerinə yetirən), ya Rəhim, ya Şafi, ya Kərim, ya Muafi (afiyyət verən)!

Məni, ata-anamı, Qurani və imani xidmətində sadiq dostlarımı, ustadım Said Nursini (r.a.) əfvinə nail et. Hər günahımı bağışla, hər xəstəliyimə şəfa və afiyyət ver.

Ey mərhəmətlilərin ən mərhəmətlisi! Rəhmətinlə məndən və onlardan əbədi olaraq razı ol.

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur.

Günahına görə cəzalandırılan bir gəncin duası insanları çox təsirləndirir. Rəbbim bizi günahlarına görə ağlayıb tövbə edən qullarından etsin.